

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 avqust 2026-cı il №53 (3055) https://mod.gov.az Qiymәti 30 qəpik

## Müasir müharibələrin nəticələrini dəyişdirən texnologiya – PUA

XXI əsrin müharibələrinin əvvəlki dövrlərin savaşlarından əsaslı şəkildə fərqlənməsi bu gün məlum həqiqətdir. Əgər keçmişdə hərbi güc əsasən canlı qüvvə, tank, artilleriya, döyüş təyyarələrinin və digər döyüş vasitələrinin sayı ilə ölçülürdüsə, bu gün müasir innovativ yeniliklərin tətbiqi (yüksək dəqiqlikli silahlar, böyük dağıdıcı gücə malik hava və quru hərbi texnikaları, pilotsuz uçuş aparatları və s.), kəşfiyyat və planlaşdırma üsul və vasitələrinin yeni dövrə uyğun inkişafı müharibələrin gedişatını və nəticələrini müəyyən edən əsas amillərdən birinə çevrilib.

Bu məqalədə danışacağımız PUA-lar son illər ərzində baş verən silahlı münaqişələr zamanı bir daha göstərdi ki, bu döyüş texnikası artıq sadəcə kəşfiyyat və müşahidə vasitəsi deyil. Eyni zamanda hücum, müdafiə, elektron mübarizə və psixoloji təsir funksiyalarını yerinə yetirən çoxşaxəli platformaları özündə cəmləşdirir. Pilotsuz uçuş aparatlarının dövrümüzdə sürətli inkişafı hərbi strategiyalarda yeni bir dövrün başlanğıcı hesab olunur. Onların nisbətən ucuz qiymətə istehsalı, uzun müddət havada qalmaq imkanları və insan həyatını riskə atmadan tapşırıqları yerinə yetirməsi dünyanın aparıcı ordularının bu texnologiyaya böyük investisiyalar yatırmasına səbəb olur.



### Pilotsuz uçuş aparatlarının tarixi

Pilotsuz uçuş aparatı, adından da göründüyü kimi göyərtəsində heç bir pilotun və ya ekipaj üzvünün olmadığı hava vasitəsidir. Avtomatlaşdırılmış dronlar müəyyən sürət, hündürlük və məsafəyə uyğun olaraq hərəkət edə bilir. Bu gün dünyada əsas döyüş elementinə çevrilən PUA-ların tarixinə nəzər salsaq görərik ki, bu aviasiya vasitəsinin ilk prototipi hələ ötən əsrin əvvəllərindən formalaşdırılmağa başlayıb. Belə ki, Birinci Dünya müharibəsi zamanı Böyük Britaniya və ABŞ-da hazırlanan PUA radio idarəetmə üsulu ilə yoxlanılıb sınaqdan keçirilib, lakin müharibə zamanı heç bir aktiv əməliyyatlarda istifadə olunmayıb. İkinci Dünya müharibəsi zamanı zenit-raket bölmələrinin hazırlığının yüksəldilməsində PUA-lardan istifadə olunub. Belə ki, müxtəlif təlim məqsədləri zamanı hədəf və müşahidə elementi rolunu oynayacaq kütləvi PUA-ların hazırlanmasına da məhz həmin dövrdə başlanılıb. Bundan başqa ABŞ Hərbi Dəniz Donanması PUA-lara müxtəlif bomba və torpedo yerləşdirilməsini sınadı və sınaq nəticəsində Sakit Okean üzərində bir neçə hədəfin məhv olunmasına da nail olundu. Bu fəaliyyət kamikadze və zərbə tipli pilotsuz uçuş aparatları tarixində böyük dönüş nöqtəsi oldu. Müasir dövrlə müqayisədə həmin dövrün PUA-ları daha böyük ölçüdə olub, müxtəlif təlimlər zamanı hava hədəfləri təcrübəsinin öyrənilməsində, müşahidə və digər təyinatlı tapşırıqların icrası məqsədləri üçün istifadə olunub. Kəşfiyyat məqsədli PUA-lar Soyuq müharibə dövründə baş vermiş Vyetnam savaşı (1955-1975) zamanı geniş tətbiq olunub. Yalançı hədəf (aldadıcı manevr), vərəqələr yaymaqla təsir (psixoloji əməliyyat) və digər missiyalarda istifadə olunan PUA-lar dövr keçdikcə daha müasir üsulla, daha uzaq məsafələrə yol qət etməsi üçün təkmilləşdirilib. Ötən əsrin sonlarında, cari əsrin başlanğıcında PUA-ların tədqiq olunması daha da dərinləşdirilib. Dronlardan istifadə edilərək kəşfiyyat məlumatlarının toplanması Körfəz müharibəsi zamanı ön plana çıxdı. Günümüzdə isə PUA-larda innovativ yeniliklərin tətbiqi sayəsində, yüksək dəqiqlikli naviqasiya sistemlərinin və süni intellektin öyrənilməsi dərinləşərək adıçəkilən texnologiyanın yüksəliş dövrünün möhürü vuruldu.

(Ardı 2-ci səhifədə)

## Ankara regional sülhə və təhlükəsizliyə töhfə verməyə hazır olduğunu təsdiqləyib

Türkiyə Milli Müdafiə Nazirliyi “Terrorsuz Türkiyə” məqsədinə çatmaq üçün bütün lazımi tədbirləri görməyə hazır olduğunu bəyan edib.

AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyi regionda uzunmüddətli sülh və təhlükəsizlik atmosferinin yaradılmasının vacibliyini vurğulayıb.

“Xalqın dəstəklədiyi təhlükəsizlik qüvvələrinin səyləri sayəsində terrorizmə qarşı qətiyyətli və davamlı mübarizədə əhəmiyyətli uğurlar əldə edilib. Cinayətkarlıqla mübarizədə göstərilən xüsusi ləyaqət vətənləri uğrunda fədakarlığın ən yüksək nümunəsini nümayiş etdirən şəhidlərə, həmçinin qazilərə və onların ailələrinə məxsusdur”, - deyə nazirlik bildirib.

Ankara terror təhlükəsinin tamamilə və qəti şəkildə aradan qaldırılmasının təkcə Türkiyədə deyil, həm də bütövlükdə regionda sülhə, təhlükəsizliyə və sabitliyə əhəmiyyətli töhfə verəcəyinə əmindir. “Bu baxımdan, “Terrorsuz Türkiyə” təşəbbüsü milli təhlükəsizliyin gücləndirilməsinə və regional sabitliyin təşviqinə töhfə verən strateji konsepsiyadır”, - deyə nazirlik qeyd edib.

## “Azərbaycan Ordusunun əsgəri olmaq mənim üçün böyük qürur və məsuliyyətdir”



Hərbi hazırlığın mühüm istiqamətlərindən biri olan sıra hazırlığı qədim dövrlərdən etibarən orduların ayrılmaz tərkib hissəsi kimi formalaşıb. Hərbi qulluqçuların vahid komanda altında nizamlı hərəkət etməsi, verilən əmrləri dəqiq və vaxtında yerinə yetirməsi məhz bu hazırlıq vasitəsilə təmin olunub. Hərb sənətinin inkişafı ilə paralel olaraq sıra hazırlığının məzmunu və tətbiq üsulları da daim təkmilləşdirilib. Müasir dövrdə sıra hazırlığı yalnız hərbi intizamın təmin olunması ilə məhdudlaşmır, həm də peşəkar hərbi qulluqçunun formalaşmasının əsas göstəricilərindən biri hesab edilir. Buna görə də bu hazırlıq növü bu gün də orduların fəaliyyət planında mühüm yer tutur.

(Ardı 3-cü səhifədə)

## Azərbaycan Ordusunda fiziki hazırlığın əhəmiyyəti



Müasir dövrdə orduların döyüş qabiliyyəti təkcə silahlanma və texniki təminatla ölçülmür. Hərbi qulluqçunun fiziki hazırlığı, dözümlülüyü, çevikliyi və psixoloji dayanıqlığı döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsində əsas amillərdən biridir. Azərbaycan Ordusunda şəxsi heyətin fiziki hazırlığının daim yüksək səviyyədə saxlanılması döyüş hazırlığının ayrılmaz hissəsi hesab olunur. Müntəzəm keçirilən məşğələlər, normativlər, manevrlər zolağında məşqlər, qaçış, güc və dözümlülük tapşırıqları hərbi qulluqçuların həm sağlamlığını möhkəmləndirir, həm də istənilən şəraitdə xidmət aparmaq bacarıqlarını artırır. Onu da qeyd etmək lazımdır ki, fiziki hazırlıq sadəcə əzələ gücü deyil, iradə, intizam, çeviklik, sürətli qərarvermə və kollektiv ruhunun formalaşmasına xidmət edən mühüm vasitədir.

(Ardı 7-ci səhifədə)

## “Əsgərlər süfrə arxasında özlərini evlərindəki kimi hiss edirlər”

Orduda şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasının əsas şərtlərindən biri də sağlam və keyfiyyətli qida təminatıdır. Gün ərzində hər bir hərbi qulluqçuya təqdim olunan yeməklərin hazırlanması görünməyən, lakin böyük məsuliyyət tələb edən bir xidmətin nəticəsidir. Bu xidmətin arxasında isə peşəsini sevən, işinə vicdanla yanaşan aşpazlar dayanır.

Yeməkxanada ilk həmsöhbətimiz baş aşpaz Əliyeva Kəmalə Əlifə qızı oldu. 1970-ci ildə Bakı şəhərində anadan olan Kəmalə



Əliyeva artıq 10 ildir ki, hərbi hissənin yeməkxanasında çalışır. Fəaliyyətə aşpaz kimi başlayan həmsöhbətimiz hazırda baş aşpaz vəzifəsini icra edir. Onun sözlərinə görə, yaxın qohumlarının da hərbçi olması bu peşəyə və hərbi mühitə bağlılığını daha da artırıb. Müsahibim bildirir ki, şəxsi heyətin qida təminatı gün ərzində üç dəfə həyata keçirilir və bütün yeməklər təsdiq olunmuş gündəlik qida rasionuna uyğun hazırlanır. Yeməklər hazırlanarkən qida təhlükəsizliyi və keyfiyyət tələblərinə ciddi əməl olunur, paylanma mərhələsində isə onların istehlak üçün uyğun temperaturda saxlanılması təmin edilir. Şəxsi heyətin gündəlik qidalanmasında həm sulu, həm də quru yeməklər yer alır. Menyu mövsümə uyğun olaraq müxtəlif salatlar və digər qida məhsulları ilə zənginləşdirilir, içkilər isə istifadə üçün münasib şəraitdə təqdim olunur. Hərbi qulluqçuların çörəklə təminatı da gündəlik qidalanmanın ayrılmaz hissəsi kimi həyata keçirilir.

(Ardı 7-ci səhifədə)

# Müasir müharibələrin nəticələrini dəyişdirən texnologiya - PUA

(Əvvəli 1-ci səhifədə)

Hazırda dronlar təkcə hərbi məqsədli deyil, günümüzün əksər sahələrində müxtəlif məqsədlərlə də istifadə olunur. Belə ki, iqlimin monitorinqinin keçirilməsi, relyefin öyrənilməsi, təbii fəlakətlər zamanı axtarış-xilasetmə işlərinin görülməsi və yaxud da sadəcə foto-video çəkilişlərin aparılmasında dronlardan geniş istifadə olunur. Bu gün dronlar hətta yüklərin bir yerdən digərinə çatdırılmasında belə iştirak edir. Yanacaq təminatı və birdəfəlik istifadə olunan batareya problemini həll etmək məqsədi ilə, bu gün günəş enerjisi ilə çalışan PUA-lar da hazırlanır və digər innovativ üsullar daha dərindən tədqiq edilir. Pilotsuz uçuş aparatları hazırda daha bir inkişaf dövrünü yaşamaqdadır. Belə ki, aparatların kompaktlığı, universallığı və süni intellekt yeniliklərinin inteqrasiyası istiqamətində araşdırmalar dərinləşir və bu da PUA-ları çoxfunksional vasitəyə çevirir. Müasir PUA-lar hətta fərdin birbaşa idarəetməsi olmadan belə tapşırıqları icra etməyə qadirdir. Əvvəlcədən seçilmiş hədəfə özü irəliləyən aparatlar, hətta mərkəzlə əlaqə və yaxud siqnal kəsildikdə geriyə bazaya dönmək qabiliyyətinə də malikdir.



### PUA-ların müasir hərbi əməliyyatlardakı əsas üstünlükləri

PUA-lar ilk növbədə özünəməxsus kəşfiyyat və müşahidə imkanlarına görə seçilir. Döyüş meydanında real vaxt rejimində görüntü ötürərək qərargahlara dəqiq məlumat təqdim edir, düşmənin canlı qüvvəsini, texnikasını və müdafiə mövqelərini müəyyənləşdirirlər. Bundan əlavə, müasir silahlı PUA-lar müəyyən edilmiş hədəfləri yüksək dəqiqliklə və böyük zərbə radiusu ilə məhv edə bilir.

Digər mühüm üstünlük onların iqtisadi səmərəliliyidir. Döyüş təyyarəsinin hazırlanması, saxlanılması və pilot heyətinin yetişdirilməsi milyonlarla dollar tələb etdiyi halda, bir çox PUA platforması bundan dəfələrlə ucuz başa gəlir. Eyni zamanda, aparatın itirilməsi pilot itkisi ilə nəticələnmir ki, bu da siyasi və hərbi baxımdan mühüm üstünlük hesab edilir. Onlar hədəfi aşkar edir, zəruri məlumatları (şəxsi heyət və döyüş vasitələrinin sayı) və strateji əhəmiyyətli nöqtələrin (komanda məntəqələri, qərargah, döyüş mövqeləri) dəqiq koordinatlarını ötürür, atəş nəticələrini qiymətləndirir və zərbə dəqiqliyini artırırlar. Bu xüsusiyyət xüsusilə son illərin müharibələrində özünü açıq şəkildə göstərmişdir. Müasir döyüşlərdə PUA-lar artilleriya divizionları, piyada bölmələri və digər aidiyyatı qruplarla qarşılıqlı inteqrasiya olunmuş şəkildə fəaliyyət göstərir.

Günümüzdə Bayraktar TB2 və MQ-9 Reaper kimi hücum dronları müasir savaşların müqəddəratını dəyişdirə bilən strateji döyüş vasitəsinə çevrilib. Modern PUA-lar kəşfiyyat, logistika, zərbələr və hətta kiberəməliyyatlarda istifadə olunur. Zərbə dronları təhlükəli tapşırıqların icrası zamanı pilotlu hərbi aviasiya vasitələrinin yerini əvəzləməyi bacarıb. Belə ki, hərbi qulluqçunun həyati riskinin minimuma endirilməsində PUA-lar böyük rol oynayır. Bundan savayı, aviasiya vasitəsinin istifadəsi ilə, dron istifadəsi arasında böyük həcmdə maddi resurs fərqi vardır ki, dronlardan istifadə dəfələrlə daha ucuz başa gəlir ki, bu da minimum xərclə maksimum nəticə deməkdir. Bu gün qiyməti minlərlə dollara bərabər olan dronlar milyonlarla dollarlıq texnikanı zərərsizləşdirir, onu istifadəyə yararsız hala salır. Bu isə müharibənin iqtisadi modelini tamamilə dəyişdirir.

### Azərbaycan-Ermənistan müharibəsində PUA-ların rolu

2020-ci il sentyabr 27-dən başlamış və 44 gün davam edən Vətən müharibəmiz zamanı Azərbaycan Ordusunun arsenalında olan modern PUA-ların genişmiqyaslı istifadəsi dünya hərb tarixində ən diqqətçəkən nümunələrdən biri hesab edilir. Düzdür, haqq savaşımızdan əvvəl qardaş Türkiyə terror qruplarının məskunlaşdığı ərazilərin zərərsizləşdirilməsi zamanı, o cümlədən Yaxın Şərqdə baş verən münaqişələr zamanı da biz PUA-ların istifadəsinin şahidi olmuşuq. Lakin İkinci Qarabağ müharibəsi zamanı, pilotsuz uçuş aparatlarının vacibliyi bir daha ön plana çıxdı. Belə ki, qarşıya qoyulan tapşırıqların qısa müddətdə, canlı qüvvə itkisi olmadan həllində PUA-lar həlledici rol oynadı. Arsenalımızda olan pilotsuz uçuş aparatları idarəetmə məntəqələrimizdən idarə olunaraq düşmənin fəaliyyətini izləməklə onun məhv edilməsində birbaşa və yaxud bilavasitə iştirak etdi. Silahlanmamızda olan Bayraktar - TB2 zərbə PUA-sı və “Harop” kamikadze dronu bu müharibədə düşmənin qorxulu yuxusuna çevrilmişdi. Nəticədə Ermənistanın işğalçı qüvvələrinin hava hücumundan müdafiə qurğularının, zirehli texnikaların, orta və yaxınmənzilli raketlərin məhv edilməsində və çoxlu sayda müxtəlif təyinatlı hərbi obyektlərin, o cümlədən, xeyli canlı qüvvənin məhv edilməsinə yönələn əhəmiyyətli tapşırıqların icrasında iştirak etdi. Azərbaycan Ordusu müxtəlif tipli pilotsuz uçuş aparatlarından istifadə etməklə döyüş meydanında əhəmiyyətli informasiya üstünlüyü əldə etdi. Kəşfiyyat PUA-ları Ermənistan silahlı qüvvələrinin mövqelərini, mühəndis-istehkam qurğularını hərbi texnikasını, artilleriya batareyalarını və hava hücumundan müdafiə sistemlərini müəyyən edir, əldə olunan məlumatlar isə digər zərbə vasitələrinə ötürülürdü. Açıq mənbələrə görə, PUA-ların fəaliyyəti nəticəsində çoxlu sayda tank, zirehli texnika, artilleriya qurğuları və hava hücumundan müdafiə sistemləri sıradan çıxarıldı.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2020-ci il oktyabrın 7-də CNN-Türk televiziyasına müsahibə verərkən, müxbirin arsenalımızda olan PUA-larla bağlı ünvanlandığı sualına cavab olaraq, PUA-ların önəmini bir daha ön plana çəkdi. “...Türkiyə istehsalı olan silahlı pilotsuz uçuş aparatları çox müasir, çağdaş texnologiyalar əsasında yaradılmış silah növüdür və dünyada cəmi bir neçə ölkə var ki, belə imkanlara malikdir. Bu da Türkiyənin həm texnoloji, həm iqtisadi, həm intellektual potensialının təzahürüdür. Əlbəttə ki, belə imkanların bizdə olması işimizi asanlaşdırır və insanlarımızın, əsgərlərimizin həyatını xilas edir. Çünki onlar olmasaydı, havadan vurulan həmin tankları, topları və digər erməni texnikasını biz gərək yerdən vuraydıq. O da çox böyük insan itkisinə gətirib çıxara bilərdi. Bu aparatlar insan itkisinin yüksək rəqəmlərlə ölçülməməsi üçün bizə böyük üstünlük verir. Eyni zamanda, onların texnologiyası mükəmməldir”.

İkinci Qarabağ müharibəsi həm də informasiya müharibəsinin yeni mərhələsini göstərdi. PUA-lardan əldə olunan yüksək keyfiyyətli görüntülər ictimaiyyətə təqdim olundu, bu isə həm daxili auditoriyaya, həm də beynəlxalq ictimai rəyə təsir göstərən mühüm informasiya vasitəsinə çevrildi. Tarixi torpaqlarımızın qarış-qarış azad olunduğu haqq savaşımızın gedişatı ilə tanış olmaq üçün, hərbi mətbuatımız çevik və operativ olaraq həmin görüntüləri ictimaiyyətə təqdim edir, göstərilən kadrlar isə bizim Böyük Qələbəyə gedən yolun yaxın olduğunu bir daha təsdiq olundu.

Pilotsuz uçuş aparatlarından danışarkən bu texnikanın psixoloji təsirini də mütləq qeyd etmək lazımdır. PUA-nın düşmən üzərində hərəkəti zamanı onun səsini eşidən düşmən müşahidə altında olduğunu dərhal anlayır ki, bu da onun fəaliyyətini düzgün təşkil etməsində maneə yaradır. Şəxsi heyət arasında isə qorxu hissinin formalaşması, onun adekvat qərar qəbuletməsinə mənfi təsir göstərir ki, bu da onu labüd məğlubiyyətə apara bilər. Zərbə dronlarının düşməsi saniyələr içində də baş verdiyindən döyüş iştirakçısı nə baş verdiyini anlamağa cavab tapmamış partlayışa məruz qalır. Düşmənə qorxu yaşatmaq, psixoloji təsir göstərmək üçün PUA-lar çox güclü silah hesab oluna bilər.

### Rusiya-Ukrayna münaqişəsində PUA inqilabı

Müharibənin mahiyyəti dəyişməsə də, onun xarakterindəki transformasiya mütəmadi olaraq fərqlənir. 2022-ci ildən günümüzə qədər davam edən Rusiya–Ukrayna münaqişəsi isə pilotsuz uçuş aparatlarının inkişafında və istifadəsində tamamilə yeni mərhələ yaratdı. Burada artıq söhbət yalnız iri hərbi PUA-lardan deyil, minlərlə kiçik FPV (First Person View) dronundan, kommersiya kvadrokopterlərindən və uzaqmənzilli zərbə aparatlarından gedir. FPV dronları nədir? First Person View - adından da göründüyü kimi, fərdin özünün sanki kabinədə təyyarə pilotu olaraq, real zaman rejimində (canlı) dronun üzərindəki kameradan gələn görüntünü xüsusi eynək və ya başqa ekranlı cihaz vasitəsi ilə izləməklə idarəetməsidir. Daha aşağı xərcli, müasir döyüş meydanında həlledici amilə çevrilən bu FPV dronlar Rusiya-Ukrayna münaqişəsində özünün daha aktiv fazasına qədəm qoydu. Hər iki tərəf arasında minlərlə dronun istifadəsi savaşın gedişatını ləngitsə də, uzunluğu min kilometrlərlə olan cəbhə xəttinin real vaxt rejimində izlənərək tam təmin edir ki, bu da şəffaf döyüş meydanı effekti yaradır. Qüvvələrin artıq səngərdə və döyüş mövqelərində təhlükəsizliyi də ikinci plana düşür ki, bu da PUA-ların izləməsi və zərbəsi nəticəsində meydana gəlib. Dövr keçdikcə hava hücumundan müdafiə üsul və vasitələrinin təkmilləşdirilməsi fonunda daha kiçik ölçülü və sürətli dronlara üstünlük verilməyə başlandı.

Müharibə göstərdi ki, elektron mübarizə artıq ən azı raketlər qədər vacibdir. GPS siqnallarının boğulması, rabitənin pozulması və pilotsuz aparatların idarəetməsinin ələ keçirilməsi müasir döyüşlərin ayrılmaz hissəsinə çevrilmişdir.

### Digər münaqişələrdə PUA-ların tətbiqi

Pilotsuz uçuş aparatları yalnız yuxarıda sadalanan münaqişələrdə deyil, Yaxın Şərq və Şimali Afrikadakı münaqişələrdə də mühüm rol oynamışdır. Suriyada müxtəlif dövlətlər və silahlı qruplar kəşfiyyat, müşahidə və dəqiq zərbə məqsədilə PUA-lardan geniş istifadə etmişlər. Bu əməliyyatlar göstərdi ki, pilotsuz sistemlər şəhər döyüşlərində də yüksək effektivliyə malikdir. Liviyada tərəflər pilotsuz aparatları həm hava üstünlüyü qazanmaq, həm də düşmənin hava hücumundan müdafiə sistemlərini sıradan çıxarmaq üçün tətbiq edirdilər. Bu münaqişə pilotsuz sistemlərin klassik döyüş aviasiyasının rolunu müəyyən qədər əvəz edə bildiyini nümayiş etdirdi. Yəməndə isə müxtəlif silahlı qruplar uzaqmənzilli PUA-larla enerji infrastrukturu və strateji obyektlərə hücumlar həyata keçirmiş, bununla da pilotsuz aparatların qeyri-dövlət aktorları üçün də ciddi imkan yaratdığı ortaya çıxmışdır.

Müasir ordular artıq xüsusi “dron qoşunları”, pilotsuz sistem operatorları və elektron mübarizə bölmələri formalaşdırırlar. Ənənəvi tank və piyada hazırlığı ilə yanaşı, pilotsuz aparat operatorlarının hazırlanması da əsas prioritetlərdən birinə çevrilmişdir.

Süni intellekt texnologiyalarının inkişafı nəticəsində gələcək PUA-ların operator müdaxiləsi olmadan hədəf aşkarlaması, marşrut seçməsi və koordinasiyalı qrup halında fəaliyyət göstərməsi gözlənilir.

Modern dövrdə dronların istifadəsində seçilmiş perspektivli istiqamətlərdən biri də onların qrup və ya sürü şəklində istifadə olunmasıdır. Dron sürüsü bir neçə PUA-nın eyni anda koordinasiyalı şəkildə qrup fəaliyyəti göstərməsidir. Bu ümumi fəaliyyət tək operator və ya əvvəlcədən proqramlaşdırılmış süni intellekt tərəfindən də icra oluna bilər. Tapşırıqlar müxtəlif təyinatlı ola bilər - kəşfiyyat, müşahidə və s. Yaxın Şərq ölkələri və Rusiya-Ukrayna münaqişələrində dron sürülərinin iştirakının şahidi olmaq mümkündür.




### Nəticə

Pilotsuz uçuş aparatları müasir hərb sənətində inqilabi dəyişiklik yaradaraq döyüşlərin planlaşdırılması, idarə olunması və icrası üsullarını kökündən dəyişdirmişdir. Azərbaycan-Ermənistan münaqişəsi PUA-ların operativ və taktiki səviyyədə nə qədər həlledici rol oynaya bildiyini nümayiş etdirdi. Son illərdəki müharibələr isə bu texnologiyanın daha da inkişaf edərək kütləvi istehsal, süni intellekt, elektron mübarizə və uzaqmənzilli zərbə imkanları ilə yeni mərhələyə keçdiyini göstərdi.

Bugünkü reallıq ondan ibarətdir ki, gələcəyin orduları yalnız tank, artilleriya və döyüş təyyarələri ilə deyil, minlərlə pilotsuz uçuş aparatı, güclü elektron mübarizə sistemləri və süni intellekt əsaslı idarəetmə şəbəkələri ilə üstünlük qazanacaqlar. Buna görə də PUA-lar artıq sadəcə yeni texnologiya deyil, müasir hərbi gücün ayrılmaz komponenti hesab olunur.

Kapitan
Fuad CƏFƏROV
“Azərbaycan Ordusu”

*Atəş hazırlığı*

# Peşəyə qəlbən bağlılıq uğur gətirir

*Əsgərin uğuru onun döyüş hazırlığındadır. Döyüş hazırlığı yüksək olan hərbi qulluqçuya hər kəs rəğbət bəsləyir, ondan nümunə, örnək götürməyə çalışır. Hazırda ordumuzda bacarıqlı, peşəsinə qəlbən bağlı oğullar xidmət edirlər. Onlar bu peşəni sevərək seçiblər. Peşənin çətinliklərini və şərəfli olduğunu da əvvəlcədən bildikləri üçün onlar hər bir çətinliyin öhdəsindən layiqincə gələcəklərini qarşılarına məqsəd qoyublar. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Adıgözəl Nəsirli də bu peşəni sevərək gəlib. Gələcəyini orduda görən Adıgözəl bu peşəyə sevgisinin İkinci Qarabağ müharibəsindən sonra yarandığını deyir.*

Əsgər Nəsirli Adıgözəl Eldar oğlu İmişli şəhərində anadan olub. Yaxın qohumları arasında hərbçilər çox olsa da əvvəllər bu peşəyə o qədər də fikir verməyib. İdmançı olmaq istəyib. Kiçik yaşlarından boksa gedib. Özünün dediyinə görə uğurları da olub. 2020-ci ilin sentyabr ayının 27-də başlayan İkinci Qarabağ müharibəsindən sonra hərbi peşəyə marağı artıb. Vətəni sevməkdən, onun müdafiəsində dayanmaqdan, onun yolunda düşmənlərə qarşı döyüşməkdən şərəfli ikinci bir peşəni görmədiyini deyir.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun sözlərinə görə əsgər üçün ən vacib hazırlıqlardan birincisi atəş hazırlığıdır. Adıgözəl dedi: "Hərbi qulluqçu ilk növbədə ona təhkim olunmuş silahı mükəmməl bilməlidir. Bunun üçün o, silahın taktiki-texniki xüsusiyyətlərini öyrənməli, onun ardıcıl olaraq natamam sökülüb-yığılmasını bacarmalıdır".



Ərazidə hazırlıqlar üzrə dərs yerləri düzəldib. Hər ixtisas sahəsinə uyğun təlim sahəsində mövcud olan dərs vəsaitlərindən əsgərlər mükəmməl istifadə edir. Avtomatın ardıcıl olaraq natamam sökülüb-yığılması dərs yerində komandirin komandası altında həyata keçirsə də orada quraşdırılan lövhədə silahın sökülən hissələri ardıcıllıqla göstərilib. Bu da dərsdən sonra, yaxud fasilə zamanı əsgərə mövzunun daha yaxşı mənimsəməsinə kömək edir.

Əsgər Adıgözəl Nəsirli deyir ki, bütün dərs yerlərində mövzunu dərindən mənimsəmək üçün əyani vəsaitlər var. Olduğumuz təlim nöqtəsi atəş hazırlığıdır. Burada bir neçə lövhə var ki, əsgərlər bu lövhələrdən yararlanırlar. Onlar lövhələrdə silahla bağlı gərəkli məlumatları oxuyub yaddaşlarına həkk edirlər. Çünki burada yazılanlar hər zaman əsgərə lazım olan məlumatlardır. Burada bir neçə masa da var. Əsgərlər həmin masaların üzərində atıcı silahları natamam sökük-yığırlar. Onlar bunu dəfələrlə təkrar edirlər. Silahın natamam sökülüb-yığılması üzrə vaxt tətbiq edilib. Həmin vaxtda hərbi qulluqçu bunu etməyi bacarmalıdır.

Atıcı silahlarda təkcə mexaniki nişangahlar deyil, həm də optik nişangahlar da mövcuddur. Düzgün nişanalma qaydalarını əsgərlərə öyrətmək ən mühüm amillərdəndir. Adıgözəl tabeliyində olan əsgərlərə həm mexaniki, həm də optiki nişangahdan istifadə qaydalarını öyrədir. Optik nişangahdan istifadə qaydalarını öyrənmək bir qədər çətin olsa da dərs düzgün və anlaşıqlı şəkildə izah edildiyi təqdirdə əsgər onu daha tez və yaxşı mənimsəyir. Bundan əlavə gecəgörmə cihazların və onlardan istifadə qaydaları da əsgərlər üçün maraq doğurur. Bu cihazdan yalnız gecələr müşahidə məqsədilə istifadə edilir.

Daha bir atəş hazırlığı nöqtəsində əsgərlərə dərsin necə keçməsini və onların bunu necə mənimsəməsi ilə yaxından tanış olduq. Bu cür hazırlıq mövzunu incəliyinə qədər incələyib əsgərlərə aşılamaq komandirdən bilik və təcrübə tələb edir. Hərbi xidmətə qəlbən bağlı komandirlər tabeliyində olan şəxsi heyətin qayğısına qalmaqla onların döyüş və mənəvi hazırlığını da daim yüksək tutmağa çalışırlar.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

(Əvvəli 1-ci səhifədə)

*Sıra hazırlığı*

# "Azərbaycan Ordusunun əsgəri olmaq mənim üçün böyük qürur və məsuliyyətdir"

Hərbi ənənələrə əsaslanan sıra hazırlığı Azərbaycan Ordusunda da döyüş qabiliyyətinin artırılmasına mühüm töhfə verir. Keçirilən məşğələlər şəxsi heyətdə əmrlərin operativ və dəqiq icrası vərdişlərini möhkəmləndirir, həmçinin yüksək məsuliyyət hissinin, daxili intizamın və kollektiv fəaliyyət bacarıqlarının formalaşmasına xidmət edir.

Sıra hazırlığının şəxsi heyətin peşəkar inkişafına təsirini yaxından izləmək məqsədilə "N" hərbi hissəsində keçirilən növbəti məşğələni müşahidə etdik. Məşğələ planına uyğun olaraq təşkil olunan praktiki dərs zamanı hərbi qulluqçular sıra fəndlərini yüksək dəqiqlik və çevikliklə yerinə yetirirlər. Komandirlər tərəfindən verilən bütün əmrlər vaxtında, sinxron icra edilir. Dərs boyunca hərbi intizam qaydalarına ciddi əməl edilməsi xüsusi nəzarətdə saxlanılır. Bu isə sıra hazırlığının döyüşə hazır, intizamlı və peşəkar şəxsi heyətin formalaşdırılmasında mühüm rol oynadığını bir daha təsdiqləyir.

Sıra hazırlığının təşkilində təcrübəli hərbi qulluqçuların rolu xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirən hərbi qulluqçulardan biri də baş gizir Röyal Məmmədovdur. O, 1992-ci ildə Kürdəmir rayonunda anadan olub. Uşaqlıq illərindən hərbçi peşəsinə maraq göstərən Röyal Məmmədov orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Xidmətini başa vurduqdan sonra həyatını Azərbaycan Ordusu ilə bağlamaq qərarına gəlib. 12 ildən artıqdır ki, ordumuzun sıralarında şərəflə xidmət edir. Qazandığı zəngin təcrübə sayəsində məşğələnin səmərəli təşkili, eləcə də şəxsi heyətin sıra bacarıqlarının inkişaf etdirilməsi istiqamətində öz bilik və təcrübəsini uğurla tətbiq edir. Bu tip hazırlığın əhəmiyyətindən danışan baş gizir Məmmədov bildirdi: "Sıra hazırlığı hərbi qulluqçularda hərbi intizamın, məsuliyyət hissinin və dəqiqliyin formalaşmasında mühüm rol oynayır. Mən də çalışıram ki, əsgərlər sıra elementlərini yüksək səviyyədə bilsinlər. Çünki intizam məhz elə sıradan başlayır. Çalışıram ki, əsgərlər sıra hazırlığının mövzusunu tam şəkildə mənimsəsinlər. Bəli, ilk dövrlər səhvlər olur. Əsas məqsədimiz peşəkar, intizamlı və istənilən tapşırığı vaxtında və dəqiq icra etməyə hazır şəxsi heyət yetişdirməkdir".

Keçirilən məşğələlər gənc hərbi qulluqçuların peşəkar formalaşmasına da mühüm töhfə verir. Sıra meydanında tapşırıqları əzmlə yerinə yetirən əsgərlər qazandıqları bilik və bacarıqların gələcək xidmət fəaliyyətlərində mühüm rol oynayacağını vurğulayırlar.

Sıra hazırlığında iştirak edən əsgərlərdən biri də Kənan Şərifovdur. O, 28 mart 2004-cü ildə Qazax rayonunun Daş Salahlı kəndində anadan olub. Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olunaraq "Təhsildə sosial-psixoloji xidmət" ixtisası üzrə ali təhsil alıb. Hazırda Azərbaycan Ordusunda xidmətini layiqincə yerinə yetirən K.Şərifov xidmət müddəti ərzində hərbi bilik və bacarıqlarını davamlı şəkildə inkişaf etdirməyə çalışır. Gələcəkdə zabit kimi xidmətini davam etdirmək onun qarşıya qoyduğu əsas məqsədlərdən biridir. Hərbi xidmətin gələcək fəaliyyətinə təsirindən bəhs edən əsgər Kənan Şərifov dedi: "Düşünürəm ki, bu cür dərslər gələcəkdə zabit kimi formalaşmağımda mühüm rol oynayır. Bu məşğələlər mənə intizamlı olmağı, verilən əmrləri dəqiq yerinə yetirməyi və kollektivlə birgə şəkildə xidmət etməyi öyrədir. Burada qazandığım bilik və vərdişlərin gələcək xidmətimdə mənə böyük fayda verəcəyinə inanıram. Qarşıma qoyduğum əsas məqsəd Azərbaycan Ordusunda zabit kimi Vətənə layiqincə xidmət etməkdir".

Şəxsi heyətin tərkibində xidməti borcunu məsuliyyətlə yerinə yetirən gənc hərbi qulluqçulardan biri də əsgər Rüfət Atlıyevdir. O, 7 noyabr 2007-ci ildə



Qəbələ rayonunun Zərgərli kəndində anadan olub. Hazırda Azərbaycan Ordusu sıralarında müddətli həqiqi hərbi xidmətini davam etdirir. Artıq dörd aydır ki, Vətənə xidmət etməyin qürurunu yaşayır və üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirir. Xidmət müddəti ərzində sıra hazırlığı da daxil olmaqla bütün məşğələlərdə fəallığı və nizam-intizamı ilə seçilən R.Atlıyev qazandığı bilik və bacarıqları gündəlik xidmət fəaliyyətində tətbiq etməyə çalışır. Keçirilən məşğələlərlə bağlı fikirlərini bölüşən əsgər Rüfət Atlıyev qeyd etdi: "Sıra hazırlığı hər bir əsgərin hərbi bilik və bacarıqlarının formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Bu məşğələlər mənə intizamlı olmağı, komandaları dəqiq yerinə yetirməyi öyrədir. Hər məşğələ zamanı öz üzərimdə daha çox çalışmağa, bilik və bacarıqlarımı təkmilləşdirməyə səy göstərirəm. Əldə etdiyim vərdişlərin gələcək xidmət fəaliyyətimdə mənə böyük fayda verəcəyinə əminəm. Azərbaycan Ordusunun əsgəri olmaq mənim üçün böyük qürur və məsuliyyətdir".

Eyni həvəs və məsuliyyətlə praktiki məşğələdə iştirak edənlərdən biri də əsgər Rafael Səmədovdur. Rafael 6 iyul 2008-ci ildə Sabirabad rayonunun Yenikənd kəndində anadan olub. Artıq dörd aydır Vətənə şərəflə xidmət edir. Keçirilən hazırlıq məşğələlərində fəal iştirak edən gənc əsgər hərbi bilik və bacarıqlarını davamlı olaraq inkişaf etdirir, sıra hazırlığının tələblərini məsuliyyətlə yerinə yetirərək hərbi intizamın və peşəkarlığın möhkəmləndirilməsinə xüsusi önəm verir. Xidmət fəaliyyəti ilə bağlı fikirlərini bölüşən əsgər Rafael Səmədov vurğuladı: "Bu qəbildən olan hazırlıqlar bizə yalnız praktiki olaraq keçirilmir. Komandirlər bizə sıra üsullarını Sıra Nizamnaməsinin tələblərinə uyğun şəkildə izah edirlər. Sonra praktiki olaraq sıra meydanında məşqlərimiz keçirilir".

Sıra hazırlığının hərbi qulluqçulara nəzəri və praktiki biliklər aşılaması ilə yanaşı hazırlıq növünün şəxsi heyətdə yüksək icra mədəniyyətinin, məsuliyyət hissinin, dəqiqliyin və intizamın formalaşmasında da mühüm töhfə verdiyinin şahidi olduq. Sıra meydanında qazanılan ilkin vərdişlər gələcəkdə daha mürəkkəb döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi üçün möhkəm zəmin yaradır. Azərbaycan Ordusunun əldə etdiyi uğurların təməlində sistemli hazırlıq, möhkəm hərbi intizam və Vətənə sədaqət prinsipləri dayanır. Müasir standartlara uyğun təşkil olunan təlim prosesi şəxsi heyətin peşəkarlığının artırılmasına, ordumuzun döyüş hazırlığının və müdafiə qabiliyyətinin daha da gücləndirilməsinə xidmət edir. Bu sistemin mühüm tərkib hissəsi olan sıra hazırlığı hərbi qulluqçuların fiziki, mənəvi və peşəkar keyfiyyətlərinin inkişafında əhəmiyyətli rol oynayır. Məhz ardıcıl, məqsədyönlü və keyfiyyətli hazırlıq sayəsində Azərbaycan əsgəri qarşıya qoyulan istənilən tapşırığı məsuliyyətlə və layiqincə yerinə yetirməyə daim hazırdır.

**Kapitan**
**Əli ABIYEV**
**"Azərbaycan Ordusu"**

Görkəmli şəxsiyyətlər

# Kəngərli nəslinin sonuncu generalı

Kəngərlilər - Naxçıvanskilər nəsli də Əfşarlar, Qacarlar, Şıxlinskilər nəsli kimi Azərbaycanın şanlı hərb tarixinə - sərkərdəlik tarixinə çoxlu sayda generallar bəxş edən nəsillər sırasında adı hər zaman şərəflə çəkilir. Bu nəslin sonuncu generalı xan əsilli Cəmşid Naxçıvanski yunkerdən, sıravi əsgərdən sərkərdəliyədək yüksələrək ulu babalarının, atasının döyüş yolunu şərəflə, xüsusi hərbi istedad və bacarıqla davam etdirmişdir.

Hərb tariximizin görkəmli nümayəndəsi olan general Cəmşid Naxçıvanskinin anadan olmasının 131-ci ildönümü tamam olur. Qırmızı terror qurbanının ölümündən isə 88 il ötür. Avqust ayı unudulmaz sərkərdənin taleyinə həm doğum, həm də ölüm tarixi kimi yazılıb. Bu da bir alın yazısı, bir taleyin qismətidir. O, 9 avqust 1895-ci ildə Naxçıvan şəhərində anadan olub, 26 avqust 1938-ci ildə Moskvada güllələnib.

2015-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görkəmli sərkərdə, Azərbaycanın ilk milli dağatıcı diviziyasının komandiri general Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzaladı. Sərəncamda onun bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçməsi və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr verməsi və onun ölkədə yüksək ixtisaslı hərbi kadr hazırlığı sahəsindəki zəngin fəaliyyəti barədə fikirlər öz əksini tapmışdır.

Yaşadığı dövrün totalitar rejiminin qayda-qanunları general C.Naxçıvanskinin hərbi yaradıcılıqla dolu ömrünü yarıda qoydu... 43 illik həyatının 26 ilini hərb sənətinə həsr edən unudulmaz sərkərdə ömrünün ən parlaq çağında bolşevik terrorunun - qırmızı terrorun qurbanına çevrildi.

Kəngərlilər nəslinin tanınmış nümayəndəsi, Cümhuriyyət Ordusunun alay, Sovet Ordusunun

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**

***"Cəmşid Naxçıvanski bacarıqlı sərkərdə kimi şərəfli döyüş yolu keçmiş və Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizələrdə göstərdiyi şücaətlərlə milli hərb sənəti tarixinə dəyərli töhfələr vermişdir. Onun ölkədə yüksək ixtisaslı hərbçi kadr hazırlığı sahəsində zəngin fəaliyyəti təqdirəlayiqdir".***

diviziya komandiri C.Naxçıvanski nəsil şəcərəsində general-mayor II Kalbalı xanın oğlu Cəfərqulu xanın ailəsində dünyaya göz açmışdı. Qardaşları - III Ehsan xan, III Kalbalı xan, Davud xan, Teymur xan, bacısı Nazlı xanım Cəfərqulu xanın doğma övladları kimi şəcərədə yer alırlar. O dövrün adət-ənənələrinə uyğun olaraq, hərbi peşəyə yalnız zadəgan övladları cəlb olunurdular. Çünki Çar hökuməti hesab edirdi ki, onlarda sadiqlik, etibarlılıq göstəriciləri yüksəkdir. Cəmşid də xan nəslinin nümayəndəsi, zadəgan övladı kimi hərb elminin sirrlərinə dərindən yiyələnir. O, 7 illik Tiflis kadet məktəbini başa vurduqdan sonra 1915-ci ildə Yelizavetqrad (Qərbi Ukrayna) qvardiya məktəbinə daxil olur.

Birinci Dünya müharibəsində müsəlmanlardan təşkil olunmuş süvari eskadronunun komandiri olan C.Naxçıvanski "Brusilov cəbhəsi"nin yarılmasında xidmətlərinə görə 4-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunur. Avstriya-Rumıniya cəbhəsində 3 dəfə yaralanan C.Naxçıvanski qəhrəman süvari zabiti kimi gümüş silahla mükafatlandırılır, 2-ci, 3-cü, 4-cü dərəcəli "Müqəddəs Anna", 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordenlərinə layiq görülür.

Azərbaycan Xalq Cümhuriyyəti ordusunun formalaşmasında görkəmli hərb xadimi C.Naxçıvanskinin də xidmətləri böyükdür. Rusiyada baş verən inqilablar orduya da təsirsiz ötüşmür. Cənub-Qərb cəbhəsinin dağılmasından sonra ştabrotmistr



C.Naxçıvanski doğma Azərbaycana dönür və vətənpərvər zabit kimi müstəqilliyimiz uğrunda mübarizəyə qoşulur. Onun komandiri olduğu alay Gəncədə yerləşdirilir və Azərbaycan milli qoşun hissələrindən ibarət korpusa daxil edilir. Alay 1918-ci ilin yazında Kürdəmirdə gedən ağır döyüşlərdə və türk qoşun hissələri ilə birlikdə Bakının erməni-bolşevik qüvvələrindən azad edilməsində fəal iştirak edir. Sonralar C.Naxçıvanski öz tərcümeyihalında bu barədə yazırdı: "Bakı Kommunasının əsgərləri gedəndən sonra şəhərə ingilislər və Sentrokaspinin qoşunları soxuldular. Mənim alayım ingilislərlə döyüşürdü. Hətta o vaxt 2 şotland rotasını əsir tutdum".

Azərbaycan Xalq Cümhuriyyətinin hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun 24 mart 1920-ci il tarixli əmri ilə 1-ci süvari tatar (azərbaycanlılar) alayının komandiri podpolkovnik C.Naxçıvanski 2-ci Qarabağ süvari alayının komandiri təyin olunur. O, Qarabağda, Şuşada daşnaklara və daxili düşmənlərə qarşı əməliyyatlara rəhbərlik edir. Ölkənin daxili sabitliyinin qorunmasında xüsusi fəallıq göstərir. Əsgəran qalasının daşnak quldurlarından təmizlənməsində Cəmşid Naxçıvanski və onun əsgərləri qəhrəmanlıq nümunələri nümayiş etdirirlər.

Podpolkovnik C.Naxçıvanski xalqına və dövlətinə sədaqətlə xidmət edərək Cümhuriyyət Ordusunda milli qoşun hissələrinin yaradılması üçün bilik və təcrübəsini əsirgəmədi.

1920-ci il 28 aprel bolşevik işğalından sonra istedadlı sərkərdənin hərbi fəaliyyəti daim nəzarətdə saxlanılır və izlənilir. Yüksək hərbi biliyə malik olan gənc zabit Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun təklifini qəbul edərək xarici ölkələrə mühacirət etmir. Doğma Vətəni Azərbaycanı və onun ayrılmaz hissəsi Naxçıvanı dünyalar qədər sevdiyindən hərbi fəaliyyətini öz ölkəsində davam etdirir. Məktəb rəisinin köməkçisi və milli dağatıcı diviziyasının komandiri vəzifəsində xidmət edərkən də o, milli hərbçi kadrların hazırlanmasında bilik və bacarığını, zəngin döyüş və nəzəri təcrübəsini əsirgəmir. Daim hərbi təcrübəsini artırmağa çalışan gənc komandirin sərkərdə kimi püxtələşməsində məşhur generallar Səməd bəy Mehmandarovun və Əlağa Şıxlinskinin böyük rolu olur. Məhz dünya şöhrətli sərkərdələrimizin köməyi ilə Azərbaycan dağatıcı diviziyası Zaqafqaziya ordusunun taktiki-təlim məşqlərində birinci yer tutur. Üç müxtəlif quruluşda hərbi xidmət keçən, mərdliklə döyüşən, hərbi ordenlər, mükafatlar alan, milli diviziya yaradan istedadlı sərkərdənin fəaliyyəti yüksək qiymətləndirilir. Azərbaycan SSR-in "Qırmızı Bayraq", "Qırmızı Əmək Bayrağı", "Qırmızı Ulduz" ordenləri ilə təltif olunur.

Lakin qırmızı terrorun qara kölgələri - bolşevik cəlladları Mircəfər Bağırov, Lavrenti Beriya Cəmşidi izləyirdi... Xan nəslindən olduğuna görə daim təqib olunan Cəmşid Moskvaya dinləyici kimi M.V.Frunze adına Hərbi Akademiyaya göndərilir və kursu bitirdikdən sonra akademiyada müəllim olaraq saxlanılır. Əvvəlcə kurs rəisi, sonra isə ümumi taktika kafedrasının müdiri təyin olunan Naxçıvanski "general-mayor" ali hərbi rütbəsinə layiq görülür.

Aprel işğalından sonra bolşevizmin təqiblərinə məruz qalan, müxtəlif vaxtlarda həbs edilən C.Naxçıvanski, 43 yaşında 1938-ci ilin mayın 20-də Lefortova zindanına atılır. Ağlasığmaz işgəncələrə böyük iradəsi ilə dözən C.Naxçıvanski 26 avqust 1938-ci ildə qapalı keçən hərbi məhkəmənin qərarı ilə güllələnir.

Ümummilli Lider Heydər Əliyev ötən əsrin 70-ci illərində yaratdığı hərbi məktəbə qırmızı terrorun qurbanı olmuş xalqımızın sərkərdə oğlu C.Naxçıvanskinin adını verməklə onu yenidən yaşatdı. Birinci Dünya müharibəsi cəbhələrində qəhrəmanlıqlar göstərmiş, Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun yaradıcılarından biri, milli dağatıcı diviziyasının komandiri olmuş general C.Naxçıvanskinin şərəfli ömür və şanlı döyüş yolu Azərbaycan Ordusunun bütün şəxsi heyətinə hər zaman örnəkdir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

Əsgər dostluğu

# Etibardan başlayan əbədi dostluq

Hərbi xidmət insanı təkcə fiziki və mənəvi cəhətdən möhkəmləndirmir, həm də ona ömür boyu yadda qalacaq dostluqlar qazandırır. Bəzən bir yoldaşın göstərdiyi kiçik diqqət, çətin anda verdiyi dəstək və göstərdiyi səmimi münasibət illər keçsə belə unudulmur. Əsgər dostluğu da məhz belə məqamlardan yaranır - eyni məqsədə xidmət edən insanların bir-birinə olan güvənindən. Getdiyimiz "N" hərbi hissəsində xidmət edən əsgərlərin gündəlik həyatında bu bağlılığın canlı nümunəsini görmək mümkündür. Müxtəlif rayonlardan hərbi xidmətə gələn gənclər burada eyni sırada dayanır, eyni qaydalara əməl edir, eyni məsuliyyəti bölüşürlər. Zaman keçdikcə onları birləşdirən təkcə hərbi xidmət deyil, həm də qarşılıqlı hörmət və etimad olur.



Əsgər Taryel Azər oğlu Ələkbərov Goranboy rayonundandır. 2008-ci il təvəllüdlü Taryel 7 aydır ki, hərbi xidmətdədir. O, xidmət yoldaşları ilə münasibətlərində səmimiyyətə və qarşılıqlı dəstəyə xüsusi önəm verir. Onun fikrincə, əsgər yoldaşının yanında olmaq hər bir hərbi qulluqçunun mənəvi borcudur.

Müsahibim əsgər Taryel Ələkbərov dostluq haqqında fikirlərini bölüşərkən deyir:

"Burada hər birimiz fərqli bölgələrdən, fərqli ailələrdən gəlmişik, amma bizi birləşdirən eyni amal var. Əsgər üçün ən vacib hisslərdən biri yanındakı yoldaşına güvənməkdir. Çünki xidmət zamanı bir-birimizə arxa-dayaq oluruq".

Əsgər Urfan Rizvan oğlu Rüstəmov Zərdab rayonundandır. 2007-ci il təvəllüdlü Urfan da 7 aydır ki, Vətən qarşısında borcunu yerinə yetirir. O, hesab edir ki, hərbi xidmətdə formalaşan dostluqların əsasını səmimiyyət, etibar və məsuliyyət təşkil edir.

"Əsgər dostluğu adi dostluqdan fərqlənir. Burada insan yoldaşının xarakterini, çətin anlarda necə davrandığını daha aydın görür. Bir-birimizə kömək etməklə həm xidmətimizi daha yaxşı yerinə yetirir, həm də gözəl xatirələr yaşayırıq", - deyə əsgər Urfan Rüstəmov bildirdi.

Bərdə rayonundan olan digər həmsöhbətim əsgər Bəhruz Məzahir oğlu Hüseynzadə 13 aydır hərbi xidmətdədir. Xidmət müddətində qazandığı təcrübə onun həm hərbi biliklərinin, həm də kollektivlə işləmək bacarığının formalaşmasına mühüm töhfə verib. Bəhruz üçün əsgəri dostluq anlayışı ilk növbədə etibar və məsuliyyət deməkdir. Onun sözlərinə görə, hərbi hissədə yaradılan sağlam münasibətlər xidmətin daha nizamlı və səmərəli təşkilinə kömək edir:

"Bir yerdə xidmət etdiyin insanı yaxşı tanıyırsan. Onun uğuruna sevinirsən, çətinliyində yanında olursan. Əsgər dostluğu məhz bu anlayış üzərində qurulur".

"N" hərbi hissəsində "Əsgər dostluğu" rubrikası üçün hazırladığımız yazının digər həmsöhbəti əsgər Nicat Eldəniz oğlu Səfərəliyevdir. Ağsu rayonundan olan Nicat 2007-ci il təvəllüdlüdür. O, 7 aylıq xidmət dövründə hərbi kollektivə uyğunlaşıb, yoldaşları ilə səmimi və möhkəm münasibətlər yaradıb. Nicat da hərbi xidmətdə qazanılan dostluqların insan həyatında xüsusi yer tutduğunu vurğulayır.

"Biz burada bir ailə kimi yaşayırıq. Hər birimizin üzərinə düşən vəzifə var. Əsas məqsədimiz xidmətimizi layiqincə yerinə yetirmək, bir-birimizə hörmət və dəstək göstərməkdir", - deyə Nicat fikrini bölüşür.

Əsgər dostluğu bəzən sözlərlə deyil, davranışlarla ifadə olunur. Yorğun anda göstərilən kömək, məsuliyyətli məqamda verilən dəstək, eyni sırada dayanarkən hiss edilən güvən - bütün bunlar hərbi xidmət illərinin ən qiymətli xatirələrinə çevrilir.

Bu gənc əsgərlərin münasibəti göstərir ki, orduda formalaşan silahdaşlıq ənənəsi möhkəm mənəvi dəyərlər üzərində qurulur. Onları birləşdirən məsafələr deyil, eyni bayrağa, eyni Vətənə və eyni amala xidmət etmək duyğusudur.

Çünki əsgər dostluğu yalnız xidmət illərinin deyil, həm də ömür yolunun yaddaşında əbədi qalan ən dəyərli bağlardan biridir.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

Müsahibə

# İntizamlı həyat tərzi sağlam ürəyin əsas təminatıdır



***Yüksək fiziki hazırlıq, dözümlülük və operativ qərarvermə hərbi xidmətin əsas tələblərindəndir. Bütün bunların təməlində isə sağlam ürək-damar sistemi dayanır. Xüsusilə yay aylarında havanın temperaturunun yüksəlməsi orqanizmin fəaliyyətinə, ilk növbədə isə ürəyin işinə əlavə yük yaradır. İstilik, susuzlaşma, intensiv fiziki fəaliyyət və digər risk faktorları ürək-damar xəstəliklərinin kəskinləşməsinə səbəb ola bilər. Bu baxımdan vaxtında tibbi müayinə, sağlam həyat tərzi və ilkin əlamətlərin tanınması böyük əhəmiyyət daşıyır. Mövzu ilə bağlı suallarımızı Müdafiə Nazirliyi Baş Klinik Hospitalın Kardiologiya bölməsinin baş koordinatoru, tibb xidməti mayoru Nüşabə Talıblı cavablandırır.***

**- Doktor, əvvəlcə ixtisasınızla bağlı məlumat verməyinizi istərdik. Kardiologiya ümumiyyətlə nədir?**

- Kardiologiya ürək və qan-damar sisteminin xəstəliklərinin yaranma səbəblərinin öyrənilməsi, diaqnostikası, müalicəsi və profilaktikası ilə məşğul olan tibb sahəsidir. Başqa sözlə desək, ürəyin fəaliyyətini, yaranan xəstəliklərin səbəblərini, onların erkən aşkarlanması, müalicəsi və qarşısının alınması üsullarını əhatə edir. Kardioloq arterial hipertenziya (yüksək qan təzyiqi), ürəyin işemik xəstəliyinin əsas klinik formaları olan stenokardiya və miokard infarktı, qəfləti ölüm, ürək ritm pozğunluqları (aritmiyalar), ürək çatışmazlığı, miokardit və perikardit, kardimiopatiya, anadangəlmə və qazanılmış ürək qüsurları kimi problemlərlə məşğul olur.



**- Cənab mayor, hərbi qulluqçuların müraciət etdiyi kardioloji problemlər hansılardır?**

- Ürək nahiyəsində sancı, əsəb, gərginlik, arterial təzyiqin yüksəlməsi, bəzi hallarda sinədə göynəmə və yanma hissi, döş qəfəsində ağrılar, ürəkdöyünmənin artması kimi şikayətlərlə müraciət edirlər.

**- Bəs, yay aylarında ürək-damar xəstəliklərinin kəskinləşməsinin əsas səbəbləri nələrdir? İsti hava ürəyə fizioloji baxımdan necə təsir göstərir?**

- İsti havalarda orqanizm temperaturu tənzimləmək üçün damarları genişləndirir, tərləməni artırır. Bunun nəticəsində qan təzyiqi enə, orqanizmdə maye və elektrolit (qanda elektrolitlər bədəndə elektrik yükü daşıyan və əsas funksiyaları idarə edən natrium, kalium, kalsium və maqnezium kimi vacib minerallardır. Onlar su balansını, sinir işini və əzələlərin hərəkətini tənzimləyir) itkisi baş verə bilər. Bu dəyişikliklər ürəyin fəaliyyətinə əlavə yük yaradır. Bədən temperaturunu sabit saxlamaq üçün ürək daha intensiv işləyir və ürək döyüntülərinin sayı artır. Belə hallar, xüsusilə ürək-damar xəstəlikləri olan şəxslərdə miokard infarktı, ürək ritm pozğunluqları və ürək çatışmazlığının kəskinləşməsi riskini artıra bilər.

**- Bilirik ki, yay aylarında isti vaxtlarda insanların fəaliyyəti günün müəyyən saatlarında məhdudlaşdırılır. Bu rejimə əməl olunmadıqda və uzun müddət günəş altında xidmət aparıldıqda ürəyə hansı təhlükələr yarana bilər?**

- İsti havalarda günəş şüalarının altında qalmaq orqanizm üçün zərərlidir. Xüsusilə günəş şüalarının daha intensiv olduğu saat - 11:00-dan 17:00-dək olan müddət sağlamlıq baxımından daha təhlükəli hesab edilir. Birbaşa günəş altında uzun müddət intensiv fiziki fəaliyyət göstərmək ürəyə ciddi yük yaradır. Bu zaman orqanizmin həm fiziki fəaliyyət zamanı enerji tələbatını ödəməli, həm də bədən temperaturunu normada saxlamaq üçün daha çox çalışmalıdır. Nəticədə ürək daha çox işləyir, qan dövranı sürətlənir və ürəyin oksigenə tələbatı artır. İsti hava və tərləmə nəticəsində yaranan susuzlaşma qanın həcminin azalmasına, qanın özlülüyünün artmasına və tromboz riski yüksəlməsinə səbəb olur. Bu zaman ürək qanı dövr etdirmək üçün daha çox işləyir. Eyni zamanda natrium, kalium və maqnezium kimi elektrolitlərin itirilməsi ürək ritminin pozulmasına səbəb ola bilər. Ağır hallarda daha həyati təhlükəli fəsadlar baş verə bilər.



**- Bəs ürək-damar xəstəlikləri baxımından risk qrupuna daxil olan şəxslər kimlərdir?**

- Risk qrupuna daha çox 45 yaşdan yuxarı kişilər, 55 yaşdan yuxarı qadınlar daxildir. Bundan başqa genetika, zərərli vərdişlər, xüsusilə tütün məhsullarından istifadə, şəkərli diabet, arterial hipertenziya, zərərli xolesterinin yüksək olması, qeyri sağlam qidalanma, piylənmə, oturaq həyat tərzi və stress əsas risk faktorlarındandır.

**- Gənc və zahirən sağlam görünən insanlarda da bəzən infarkt və qəfləti ölüm halları qeydə alınır. Bunun əsas səbəbləri nələrdir və bu risklərin qarşısını almaq üçün hansı tədbirlər görülməlidir?**

- Bəzi hallarda səbəb koronar arteriya anomaliyaları (ürəyi qanla təmin edən damarların anadangəlmə normal yerləşməməsi və ya inkişaf etməməsidir), irsi meyillilik, yəni genetik ürək xəstəlikləri ola bilər. Bununla yanaşı, siqaret çəkmək, zərərli maddələrdən istifadə, oturaq həyat tərzi (qadcetlərdən həddindən artıq istifadə), enerji içkilərinin, idman məşqləri zamanı istifadə edilən qida əlavələrinin qəbulu, nəzarətsiz intensiv məşqlər, ürəyin əzələ xəstəlikləri (miokarditlər, kardiomiopatiyalar) ürək damar hadisələrinin inkişaf riskini artıra bilər. Belə halların qarşısını almaq üçün müntəzəm tibbi müayinələrdən keçmək, sağlam həyat tərzi sürmək, şübhəli simptomları və ailə anamnezində belə hallar yaşanıbsa, vaxtında həkimə bildirmək vacibdir. Son zamanlar qəfləti ölümlərə idman zallarında rast gəlinir. Yaxşı olar ki, idman zallarında çalışan məşqçilər qəfil ürək dayanması zamanı ilkin tibbi yardım göstərilməsi üzrə təlim keçsinlər.

**- Kardioloji nöqteyi-nəzərdən hansı hallarda fiziki fəaliyyət dayandırılmalıdır?**

- İdman zallarına gedən şəxslər əzələ kütləsinin tez artması üçün bəzi hallarda qida əlavələrindən istifadə edirlər. Nəzarətsiz istifadə edilən bu məhsullar gizli gedən ürək xəstəliklərinin üzə çıxmasına və ya mövcud xəstəliyin ağırlaşmasına səbəb ola bilər. Ona görə də idmana başlamazdan əvvəl həm bu cür xoşagəlməz halların, həm də digər patologiyaların qarşısını almaq məqsədilə həkim müayinəsindən keçsələr yaxşı olar.

**- Mütəmadi kardioloji yoxlanışlara neçə yaşdan sonra başlamağı məsləhət görürsüz? İldə neçə dəfə kardioloji müayinədən keçmək lazımdır?**

- Məncə, ExoKQ müayinəsi anadangəlmə qüsurları vaxtında aşkar etmək üçün yeni doğulan körpələrdə başlayaraq aparılmalıdır. Risk amili olmayan şəxslərin profilaktik ildə bir dəfə həkim müayinəsində olmaları məqsədəuyğundur. Müayinələrin həcmi



vəziyyətə uyğun olaraq həkim tərəfindən təyin olunur. Xəstəliyi olan, müalicə təyin olunmuş pasiyentlər isə həkimin məsləhətinə əsasən daha tez-tez nəzarət müayinələrinə çağırıla bilərlər.

**- Tibbi yoxlama zamanı gizli ürək xəstəliklərinin müəyyən olunmaması mümkündür?**

- Bəli. Bəzi ürək xəstəlikləri uzun müddət simptomsuz gedə və standart tibbi müayinə zamanı aşkarlanmaya bilər. Xüsusilə bəzi irsi ritm pozğunluqları, erkən mərhələdə olan ürək əzələsi xəstəlikləri və koronar arteriya problemləri yalnız xüsusi müayinələr və ya fiziki gərginlik zamanı yaranan şikayətlərlə özünü göstərə bilər. Buna görə risk qrupuna daxil edilən şəxslərdə (ailəsində erkən yaşlarda ürək damar xəstəliyi və ya qəfləti ölüm halları olan) əlavə müayinələr aparılması məqsədəuyğundur. Bu mövzu ordumuzda xüsusi diqqətdə saxlanılır. Bütün kateqoriyalardan olan hərbi qulluqçular xüsusilə, müddətli hərbi xidmətə gələn çağırışçı gənclər hərbi həkim komissiyalarımız tərəfindən dərindən və diqqətlə yoxlanılır. Müayinələr zamanı ürək qüsurları olan şəxslərə rast gəlinərsə, onlar haqqında müvafiq qaydada tədbirlər görülür. İxtisaslı həkimlərə müraciət olunması tövsiyyə olunur.

**- Hansı analiz və müayinələr ürək-damar riskini vaxtında aşkar etməyə kömək edir?**

- İlk növbədə, arterial təzyiq ölçülməli, elektrokardioqram (EKQ) çəkilməli, ehtiyac olduqda exokardioqrafiya (ürəyin ultrasəs müayinəsi) aparılmalıdır. Hər hansı problem görünürsə, xəstələri daha dərinləşmiş müayinələrə yönləndirilməlidir. Fiziki yükləmə testləri (stress-testlər), Holter monitorinqi, tilt test, ehtiyac varsa, daha dəqiq nəticə üçün kardiak MRT, koronar angioqrafiya, KT angioqrafiya müayinələrinə cəlb edilməsi barədə qərar verilir. Laborator müayinələrdə qanın ümumi və biokimyəvi analizləri, qanın lipid spektri, göstəriş olarsa laxtalanma faktorları və kardiospesifik fermentləri yoxlanılmalıdır.

**- Ürəktutmanın ilkin əlamətləri hansılardır? Bu zaman ilk tibbi yardım necə göstərilməlidir?**

- Ürəktutmanın əsas əlamətləri döş qəfəsinin mərkəzində yaranan sıxıcı və ya yandırıcı ağrıdır ki, bu ağrı sol qola, çiyinə, boyuna, çənəyə və ya kürəyə yayıla bilər. Bununla yanaşı təngnəfəslik, soyuq tər, ürəkbulanma, başgicəllənmə, güclü halsızlıq, bəzən huşun itməsi də müşahidə edilə bilər. Ürək ağrıları-işemik dediyimiz ağrılar daha çox fiziki hərəkətlə bağlı olur. Bu hal məsafə qət etdikdə, pilləkən qalxdıqda, ağır fiziki iş gördükdə, soyuq havada bayıra çıxdıqda (damarda spazm yaranır), emosional gərginlik altında meydana çıxa bilər. Ağrıların müddəti əvvəl qısa olur. Xəstəlik irəlilədikcə ağrı tutmalarının intensivliyi və davametmə müddəti də artır. Əgər xəstədə narahatlıq varsa, ilkin olaraq vaxt itirmədən təcili tibbi yardım çağırmaq lazımdır. Peşəkar tibbi müdaxiləyə qədər, xəstənin rahatlığı təmin olunmalı, ya uzanmalı, ya da oturmalıdır. Sıx geyimlər boşaldılmalı, panik olmamalı, xəstə psixoloji olaraq sakitləşdirilməlidir. İnfarkt hallarında xəstələrdə huşun itməsi ola bilər.

(Ardı 6-cı səhifədə)

# İntizamlı həyat tərzi sağlam ürəyin əsas təminatıdır

(Əvvəli 5-ci səhifədə)

Əgər xəstə huşunu itirərsə, normal tənəffüsü və nəbzi dayanarsa dərhal ürək-ağciyər reanimasiyasına başlanılmalı, avtomatik xarici defibrilyator (AED) varsa istifadə edilməli, xəstə dərhal ixtisaslaşmış xəstəxanaya təxliyyə edilməlidir. Vaxtında göstərilən ilk tibbi yardım həyat qurtaran əsas amillərdəndir.

**- Ürək sağlamlığını qorumaq üçün qidalanma və həyat tərzi ilə bağlı tövsiyələriniz nələrdir?**

- Qidalanma ən önəmli şərtlərdən biridir. Ümumiyyətlə tək ürək xəstələri yox, hər bir fərd düzgün qidalanmalıdır. Rasionda meyvə, tərəvəz qidaları, balıq məhsulları, quş əti məhsulları, az duzlu, yağsız qidalara üstünlük verilməli, qırmızı ət məhsulları azaldılmalı, şəkərdən istifadə məhdudlaşdırılmalıdır, şirin



qazlı içkilərdən istifadə etməmək, alkoqol və tütün məmulatlarından imtina etmək məsləhət görülür. Yay aylarında kifayət qədər su qəbul etmək, uzun müddət günəş altında qalmamaq, xüsusilə günün ən isti saatlarında ağır fiziki yüklənmədən çəkinmək vacibdir. Sağlamlığın qorunması və ürək-damar xəstəliklərinin profilaktikası baxımından müntəzəm fiziki aktivlik əhəmiyyət kəsb edir. Həftə ərzində yaşa və sağlamlıq vəziyyətinə uyğun olaraq həyata keçirilən fiziki məşqlər ürəyin fəaliyyətini yaxşılaşdırır. Buna görə də hər bir şəxs gündəlik həyat tərzinə müntəzəm fiziki aktivliyi daxil etməlidir.

**- Son olaraq ürək sağlamlığının qorunması ilə bağlı məsləhətiniz nələrdir?**

- Sağlamlığı qorumaq hər bir insan üçün əsas prioritet olmalıdır. Ürək sağlamlığının qorunması intizamlı həyat tərzindən başlayır. Sağlam qidalanmaq, siqaret çəkməmək, müntəzəm tibbi müayinələrdən keçmək və döş qəfəsində ağrı, təngnəfəslik, huşun itirilməsi və ya ürəkdöyünmə kimi əlamətlərə heç vaxt laqeyd yanaşmamaq lazımdır. Vaxtında müraciət edilən tibbi yardım həm sağlamlığın, həm də həyatın qorunmasında həlledici rol oynayır.

**- Cənab mayor, verdiyiniz ətraflı məlumatlar, dəyərli məsləhətlər üçün sizə təşəkkür edirik. Sonda bir daha qeyd etmək istəyirik ki, ürək sağlamlığının qorunması fərdi sağlamlıq məsələsi olmaqla yanaşı, peşə fəaliyyətinin də mühüm tərkib hissəsidir. Müntəzəm tibbi nəzarət, sağlam qidalanma, fiziki aktivliyin düzgün tənzimlənməsi, zərərli vərdişlərdən uzaq durmaq və hər hansı narahatedici əlamətə vaxtında reaksiya vermək ürək-damar xəstəliklərinin qarşısının alınmasında əsas rol oynayır. Xüsusilə yay aylarında istiliyin orqanizmə təsiri nəzərə alınmalı, rejimə əməl edilməli və həkim tövsiyələri diqqətdə saxlanılmalıdır.**

**Müsahibəni apardı:**
**leytenant**
**Tamilla HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Disput*

# Əsgərin ən böyük gücü Vətən sevgisidir

Vətənpərvərlik təkcə Vətəni sevmək deyil, vətənpərvərlik Vətən üçün yaşamağın fəzilətlərini dərk etməkdi, onun aşıladığı mənəvi dəyərləri yaşatmaqdı, gözəllikləri könülə köçürməkdi. Vətənpərvərlik həm də mənsub olduğun xalqın milli kimliyini, mənəvi dəyərlərini və gələcəyə inamını yaşadan müqəddəs duyğudu. Bu duyğu xalqın varolma düşüncəsinin işığıdı. Akademik Xudu Məmmədov deyirdi: "Uşaqlara Vətəni sevməyi öyrətmək lazım deyil..! Siz onlara Vətəni tanıdın, özləri sevəcəklər". Min illərdir Vətən tanıdıla-tanıdıla sevilib, sevilə-sevilə tanıdılıb. Vətəni tanıyıblar, seviblər, çağırışçı olublar, hərbi xidmətə gediblər, Vətəni qoruyublar. Vətənpərvərlik budur!..

Vətənpərvərlik and deyil, Andı müəyyənləşdirən müqəddəs duyğudur. Əsgər Hərbi Andı bu müqəddəsliyin işığında parlayır, andını bu müqəddəsliyin işığında yerinə yetirir. İkinci Qarabağ müharibəsinin döyüşlərində cəsarət də, şücaət də, qüdrət də vətənpərvərlikdən dikəlmişdi. Əsgəri döyüşçü eləyən bu müharibə Azərbaycan əsgərinin mənəvi dünyasının da tarixi Zəfəri təsdiqlədi ki, hər əsgərin Hərbi Andı anddan sonra "Vətən gözdü biz kirpik" deyimi ilə tamamlanır...

Gənc nəslin milli ruhda, Vətənə bağlı və məsuliyyətli vətəndaş kimi formalaşmasında milli dəyərlər, bu sıradan vətənpərvərlik miras kimi yaşadılır, müqəddəs məqam kimi qorunur, cəmiyyətin inkişafında və dövlətin güclənməsində mühüm mənəvi dayaqlardan biri hesab olunur. "N" hərbi hissəsində "Əsgərin ən böyük gücü Vətən sevgisidir" mövzusunda keçirilən disput da bu tezislərə əsaslanmışdı.

Gizir Sərdar Zeynalov disputa giriş kimi bildirdi ki, Azərbaycan dövləti ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını Azərbaycan əsəgərinə etibar edir, inanır ki, onlar bu müqəddəs vəzifəni böyük məsuliyyətlə yerinə yetirir. Hər biriniz Vətəni sevirsiniz, bu sevginin işığında xidmət edirsiniz. Siz, qaliblərin davamçılarısınız, onların qələbə ruhu sizin xidməti ruhunuzdur. Vətənpərvərlik təkcə müharibədə deyil, müharibəsiz illərdə də əsgərin ən böyük mənəvi silahıdır. Müharibəsiz illərdə vətənpərvərlik güclü olmalıdır ki, bir daha düşmən bizlə müharibə etməyi düşünməsin. Siz də bu sevgiylə xidmət edirsiniz. Vətənpərvərlik duyğuları əsgər üçün həm də hərbi xidmətdə hərbi Nizamnamələrin tələblərini, komandirlərin əmr və tapşırıqlarını məsuliyyətlə yerinə yetirməkdir, silahı qorumaqdır, xidmət yoldaşına dayaq olmaqdır, dövlətimizin maraqlarını hər şeydən üstün tutmaqdır, ...Biz tarixi Zəfərin döyüşçülərinin davamçılarıyıq, əsgər əsgərin, gizir gizirin, zabit zabitin. Bizdən əvvəl xidmət edənlər Vətən müharibəsində necə döyüşdülərsə, biz Zəfərdən sonra həmin ruhda xidmət etməliyik... Ordunun gücünü silahlardan da əvvəl möhkəm iradə, yüksək mənəviyyat və sarsılmaz vətənpərvərlik müəyyənləşdirir. Əminəm ki, hər biriniz Azərbaycan əsgəri adını böyük qürurla, şərəflə daşıyırısınız. Siz də bilirsiniz ki, əsgərin ən böyük gücü Vətən sevgisidir.

Disput belə bir gözəl ovqatla davam edir.

Əsgər Fərid Rəhimli deyir ki, mən hər dəfə Azərbaycan bayrağına baxanda həmişə qürur hissi keçirmişəm. Bu qürur mənim ömür yoldaşım olacaq. Mən də bilirəm ki, bu bayraq çətin mübarizələrdən keçib, onun varlığı həmişə hansı dövlətlərisə narahat edib, bu bayrağın qururla dalğalanmasını dərk etməyənlər elə biliblər ki, siyasi hiylələrlə, bu və ya digər dövləti münasibətlərlə, ilhaqla onu yerə endirmək olar. Unudurlar ki, bayraq bayraqdırsa, bir dəfə yüksəlir və heç zaman enmir. Bayrağımız 1918-ci ildə yüksəldi, imperiya ADR-i ilhaq etdi, ancaq o bayraq azərbaycançılıq məfkurəsinin səmalarında həmişə dalğalandı və 1991-ci ildə yenidən yüksəldi. Mən də bu ordunun bir əsgəri olduğum üçün qürur duyuram. Hər gün xidmət edərkən düşünürəm ki, bizə əmanət edilən bu torpaqları göz bəbəyimiz kimi qorumalıyıq.

Əsgər Samir Aslanov əsgər yoldaşının fikrinin davamı kimi deyir ki, vətənpərvərlik yalnız silah götürüb döyüşmək deyil. Bu, həm də döyüş hazırlığını daim yüksək səviyyədə saxlamaqdır,



hər an Vətənin çağırışına hazır olmaqdır. Ali Baş Komandanın döyüş əmri ilə başlayan İkinci Qarabağ müharibəsində, mahiyyətcə Vətən müharibəsində əsgərlərimiz yüksək döyüş hazırlığı ilə bir sırada birlik, cəsarət və peşəkarlıq nümayiş etdirdilər. Onların qəhrəmanlığı bizə göstərdi ki, Vətən sevgisi insana ən çətin döyüşlərdə də qələbə işığı olur.

- Qəhrəmanlar bizə yalnız qələbə yox, həm də böyük bir örnək miras qoydular. Bu miras Vətənə sevgidi, Vətən sevgisidi. Onlar döyüşləri ilə təsdiqlədilər ki, sübut etdilər ki, ürəkdə Vətən sevgisi olduqda heç bir çətinlik insanı yolundan amalından döndərə bilməz. Biz onların davamçıları kimi xidmət edirik. Bu, böyük məsuliyyəti də Vətənə ad edirik. Mən inanıram ki, Azərbaycan əsgəri tarixi Zəfərdən sonra da, həmişə dövlətimizin müstəqilliyini, xalqımızın təhlükəsizliyini əzmkarlıqla, dövlətə, dövlətçiliyə - Vətənə sədaqətlə qoruyacaq. Hərbi mundirin şərəfini hamımız yaxşı dərk edirik. Onu hamımız Vətən qarşısında müqəddəs missiyanın mundiri bilirik (əsgər Nail Abdullayev)...

- Düşünürəm ki, Vətən sevgisi insanda ailədən aldıqları ilə formalaşır, məktəbdə öyrəndikləri, eşitdikləri ilə formalaşır. Hər birimiz uşaqlığımızdan şəhidlərimizin, qəhrəmanlarımızın həyatını öyrənə-öyrənə böyümüşük. Yaxın qohumumuzun 4-5 yaşında oğlu var, harada bayrağımızı görsə Azərbaycan, Azərbaycan deyə qışqırıb hər kəsi o tərəfə, bayrağımızın dalğalanadırdığı tərəfə baxmağa çağırır. Budur vətənpərvərlik. Vətən müharibəsində Azərbaycan Ordusunun döyüşləri, Azərbaycan əsgərinin rəşadəti, şücaəti, qəhrəmanlığı hər birimizin Vətən sevgisini daha da dərinləşdirdi, daha da məzmunlaşdırdı. Bu döyüşlər həm də xalqın ruhunun döyüşü idi. Mən də həmin qəhrəmanların yolunu davam etdirənlərin sırasında olmağımla qürur duyuram. Tarixi Zəfəri hamımız Vətənə sevginin Zəfəri bilirik. Onu da bilirik ki, əsgərin ən böyük gücü Vətən sevgisidir (əsgər Aqşin Əsədov).

Əsgər Pərvin Məmmədov maraqlı və düşündürücü bir məqamdan söz açaraq deyir ki, İkinci Qarabağ müharibəsinin döyüşlərində döyüşçülərimizin bir-birinə arxa-dayaq olması da tarixdir. Döyüşlərdə heç kim tək deyildi, hamısı qələbə naminə döyüşürdü. Bu birlik Azərbaycan Ordusunun ən böyük gücünə çevrilmişdi. Mənə elə gəlir ki, döyüşdə canını döyüşçü yoldaşı üçün sipər etmək də vətənpərvərlikdir.

- Mən düşünürəm ki, Vətən müharibəsində Azərbaycan əsgərinin ən güclü silahlarından biri də inam idi, - əsgər Əli Məmmədov belə deyir. - Ordumuz öz gücünə, xalq isə öz ordusuna inanırdı və bu inam Azərbaycan Ordusunu Zəfərə apardı. Azərbaycan əsgəri göstərdi ki, Vətən uğrunda döyüşən insanın qarşısında heç bir maneə dayana bilməz. Bu gün bizim üzərimizə düşən vəzifə həmin Zəfərin ruhunu qorumaq, daim hazırlıqlı olmaq və gələcək nəsillərə güclü, təhlükəsiz Azərbaycan miras qoymaqdır. Mən inanıram ki, Vətən sevgisi Azərbaycan əsgərinin qəhrəmanlığı salnaməsinin sülh dövründə də davam etdirəcəkdir.

Disputun nə vaxt başa çatdığını heç kim hiss etmədi. Elə bil gərəkli bir mövzu hamının düşüncələrinin göyqurşağıydı. Hərbi xidmət onsuz da illərlə yaddaşlarda qalır. Disputlar əsgərlərin vətənpərvərlik ruhunun möhkəmləndirilməsində, milli dəyərlərin yaşadılmasında, hərbi xidmətə məsuliyyətin daha da möhkəmləndirilməsində çox əhəmiyyətlidir. Əsgərlər həm də dedilər ki, Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər Azərbaycan əsgərinin yüksək döyüş hazırlığının, qətiyyətinin, Vətənə sonsuz sevgisinin və xalq-ordu birliyinin nəticəsidir. Həmin qəhrəmanlıq salnaməsi bugünkü hərbi qulluqçular üçün həm nümunə, həm də böyük məsuliyyətdir. Əsgərlər həm də bildirdilər ki, Vətəni sevməyin zamanla və qanunla təsdiqi hərbi xidmətdir. Biz də həmişə xatırlayacağıq ki, əsgərin ən böyük gücü Vətən sevgisidir. Biz həm də bu güclə qüdrətli olacağıq.

Disput müzakirə deyildi, bu gərəkli mövzuda fikir mübadiləsi idi. Əsgər düşüncələrinin işığı fikir-fikir, cümlə-cümlə düşüncələrə düşürdü. Duyurduq ki, bunlar necə on illərdən sonra da əsgərlərin duyum ünvanı olacaq. Bu düşüncələr də yaşadılacaq. Həm də milli-mənəvi dəyər kimi yaşadılacaq...

Disput sona çatır. "N" hərbi hissəsində başa çatan bu gözəl kəlmələşmə sonrakı söhbətlər üçün başlanğıc olacaq. Bizə elə gəlir ki, Vətənə sevginin başlanğıcı var, duyulur. Sonu olmur, sonu son nəfəsdi, son nəfəsdən sonra bu sevgi ruhda yaşayır, yaşadılır...

Ən böyük gücünün Vətən sevgisi olduğunu duyanların baxışlarında bir səssiz and oxunur: Sən varsan, biz varıq, Vətən, ay Vətən! Duyduğumuz bu kəlmələri disputun nəqəratı bilirik...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

Fiziki hazırlıq

# Azərbaycan Ordusunda fiziki hazırlığın əhəmiyyəti

(Əvvəli 1-ci səhifədə)



Hərbi qulluqçu çətin hava şəraitində, mürəkkəb relyefdə və yüksək psixoloji gərginlik altında fəaliyyət göstərməyə hazır olmalıdır. Bunun üçün isə müntəzəm idman məşğələləri və planlı hazırlıq prosesi xüsusi əhəmiyyət daşıyır. Hərbi qulluqçuların fiziki hazırlıqlarını müşahidə etmək üçün “N” hərbi hissəsinə yollandıq. İdman şəhərciyində bizi zabit Zaur Əkrəm oğlu Əliyarzadə qarşıladı. Söhbət zamanı mayor Z.Əliyarzadə Vətən müharibəsində Hadrut qəsəbəsi istiqamətində, Ərgünəş yüksəkliyi uğrunda gedən döyüşlərdə yerüstü mühafizənin təşkilində iştirak etdiyini bildirdi. Onun sözlərinə görə, döyüş şəraitində əldə olunan təcrübə, fiziki hazırlığı yüksək olan şəxsi heyətin verilən tapşırıqları daha çevik və dəqiq yerinə yetirdiyini bir daha göstərdi. O, həmçinin vurğuladı ki, fiziki hazırlıq hər bir hərbi qulluqçunun peşəkar hazırlığının əsas sütunlarından biridir: “Vətənə xidmət etmək böyük şərəfdir. Bu şərəfi layiqincə daşımaq üçün hərbi qulluqçu həm mənəvi, həm də fiziki cəhətdən daim hazır olmalıdır. Döyüş meydanında insanı irəli aparan amillərdən biri məhz fiziki hazırlıqdır. Güclü bədən möhkəm iradə ilə birləşəndə ən çətin tapşırıqlar belə uğurla yerinə yetirilir. Gənclərə tövsiyəm odur ki, idmanı həyat tərzinə çevirsin, çünki sağlam gənclik güclü ordunun əsasını təşkil edir”.

Mayor Z.Əliyarzadə söhbət əsnasında idman şəhərciyində məşq edən hərbi qulluqçuları işarə edərək, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının əksəriyyətinin hərbi xidmətə başlamazdan əvvəl müxtəlif idman növləri ilə məşğul olduqlarını vurğuladı. Onların da fikirlərini öyrənmək üçün fasilədə olan hərbi qulluqçulara yaxınlaşdıq. Söhbət zamanı dedilər ki, mülkidə idmanla məşğul olmaq onların xidmətə uyğunlaşmasını asanlaşdırıb, fiziki hazırlıq səviyyələrinin daha da yüksəlməsinə imkan yaradıb. İki ildir hərbi xidmətdə olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu İmaməli İsgəndər oğlu Məmişov uşaqlıqdan idmana maraq göstərdiyini, həvəskar futbol ilə məşğul olduğunu dedi: “İdman mənim həyatımın ayrılmaz hissəsidir. Futbol mənə komandada işləməyi, məsuliyyət hissini və dözümlülüyü öyrədib. Hərbi xidmətdə bu keyfiyyətlərin nə qədər vacib olduğunu daha yaxşı anladım. Fiziki hazırlıq məşğələlərinə həmişə böyük həvəslə qoşuluram və bunun gündəlik xidmətimə müsbət təsirini hiss edirəm”.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əziz Telman oğlu Mustafayev isə hərbi xidmətə başlamazdan əvvəl ağır atletika ilə məşğul olub. Onun sözlərinə görə, qazandığı idman vərdişləri bu gün də xidmət zamanı ona böyük kömək göstərir: “Ağır atletika mənə güclü olmaqla yanaşı, intizamlı olmağı da öyrədib. Orduda bu xüsusiyyətlər daha da inkişaf edir. Fiziki hazırlıq hər gün öz üzərində işləməyi tələb edir. Azərbaycan Ordusunda xidmət etdiyim müddətdə bu istiqamətdə yaradılan şərait fiziki hazırlığımla məşğul olmağıma ciddi dəstək olub”.

Dörd ildir xidmət edən Əziz Mübariz oğlu Məmmədzadə isə səkkiz il kunq-fu ilə məşğul olub. O, hesab edir ki, döyüş sənəti insana yalnız fiziki güc deyil, həm də özünənəzarət qazandırır: “Kunq-fu mənə səbirli olmağı, hər vəziyyətdə soyuqqanlı davranmağı öyrədib. Bu gün həmin bacarıqlar hərbi xidmətdə də mənə kömək edir. Fiziki hazırlıq məşğələləri dözümlülüyümüzü artırır və tapşırıqları daha inamla yerinə yetirməyimizə şərait yaradır. Güclü hərbi qulluqçu daim öz üzərində işləyən hərbi qulluqçudur”.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Pünhan Mehdi oğlu Talıbov isə peşəkar səviyyədə sərbəst güləşlə məşğul olub. O, respublika çempionatlarında dörd dəfə birinci, iki dəfə ikinci yerə layiq görülüb: “Peşəkar idman mənə qələbənin zəhmət və intizam hesabına qazanıldığını öyrədib. Orduda da eyni prinsiplər keçərlidir. Hər məşq bizi həm fiziki, həm də mənəvi cəhətdən gücləndirir. Hesab edirəm ki, idman keçmişim xidmət zamanı qarşıma çıxan çətinlikləri daha inamla dəf etməyimə kömək edir”.

Fiziki hazırlıq üzrə keçirilən məşğələlər hərbi qulluqçuların döyüş qabiliyyətinin artırılması ilə yanaşı, onların sağlam həyat tərzinin formalaşmasına da xidmət edir. Danılmaz faktdır ki, idmanla məşğul olan şəxsi heyət daha çevik, dözümlü və özünəinamlı olur. Bu isə istənilən tapşırığın yüksək peşəkarlıqla yerinə yetirilməsinə zəmin yaradır. Azərbaycan Ordusunda fiziki hazırlığın daim diqqət mərkəzində saxlanılması güclü ordunun formalaşdırılmasına xidmət edən əsas istiqamətlərdən biridir. Çünki sağlam bədən, möhkəm iradə və yüksək vətənpərvərlik ruhu bir araya gəldikdə, Vətənin müdafiəsi daha etibarlı əllərdə olur.







**Leytenant**
**Tamilla HÜSEYNLİ**
**“Azərbaycan Ordusu”**

Yeməkxana

# “Əsgərlər süfrə arxasında özlərini evlərindəki kimi hiss edirlər”

(Əvvəli 1-ci səhifədə)



Baş aşpaz Kəmalə Əliyeva peşəsinə münasibətini belə ifadə edir: “Hər gün işə böyük həvəslə gəlirəm. Bu peşə böyük məsuliyyət tələb edir. Çətin tərəfləri olsa da, şəxsi heyətlə birlikdə olmaq, onların qida təminatını hazırlamaq mənim üçün qürurvericidir. Əsgərləri öz balam kimi görür, hər birinə qayğı ilə yanaşıram. Çalışıram ki, hazırladığımız yeməklər həm dadlı, həm də keyfiyyətli olsun. Onlar süfrə arxasında özlərini evlərindəki kimi hiss etsinlər. Dövlətimiz ordumuzun təminatına daim xüsusi diqqət göstərir və şəxsi heyətin qidalanması da bu diqqətin əsas istiqamətlərindən biridir”.

Səmərəli fəaliyyətinə görə baş aşpaz Kəmalə Əliyeva dəfələrlə hərbi hissə rəhbərliyi tərəfindən fəxri fərman və təşəkkürnamələrlə təltif olunub. Bu mükafatlar onun uzun illər ərzində göstərdiyi vicdanlı əməyin qiymətləndirilməsinin bariz nümunəsidir. Yeməkxananın digər əməkdaşı Məmmədova Yeganə Həsən qızı da kollektivin təcrübəli üzvlərindəndir. 1963-cü ildə Bakı şəhərində anadan olan Yeganə Məmmədova 2014-cü ildən etibarən hərbi hissədə aşpaz kimi fəaliyyət göstərir. O da xidmət dövründə nümunəvi əməyinə görə müxtəlif təşəkkürnamə və təltiflərə layiq görülüb. Həmsöhbətimiz bildirir ki, aşpaz peşəsi yalnız yemək hazırlamaqdan ibarət deyil, həm də böyük mənəvi məsuliyyətdir.

“Şəxsi heyətin qida təminatına hər zaman xüsusi diqqətlə yanaşıram. Əsgərlərimizi öz övladlarımdan ayırmıram. Onların hər biri mənim üçün əzizdir. Peşəmin çətinlikləri olsa da, bu işi böyük sevgi ilə görürəm”.

Yeməkxanada nizam-intizamın və qida təminatı prosesinin düzgün təşkilində yeməkxana növbətçisinin üzərinə də mühüm vəzifələr düşür. Bu barədə yeməkxana növbətçisi baş gizir Xancanov Elməddin Azad oğlu məlumat verdi.

1988-ci ildə İsmayıllı rayonunda anadan olan baş gizir Elməddin Xancanovun ümumi xidmət ili 19 ildən artıqdır. O bildirir ki, yeməkxana növbətçisi kimi əsas vəzifəsi anbardan ərzaq məhsullarının qəbuluna, onların bişirilmək üçün qazanlara verilməsinə və hazır yeməyin şəxsi heyətə düzgün şəkildə paylanmasına nəzarət etməkdir. Bütün mərhələlər müəyyən olunmuş qaydalara uyğun həyata keçirilir və qida təminatı prosesinin fasiləsizliyi daim diqqətdə saxlanılır.

Həmsöhbətimiz hərbi xidmətlə yanaşı, idmana da böyük maraq göstərdiyini vurğulayır. O, mülki həyatda dörd ildən artıq müddətdə ciu-citsu idman növü ilə məşğul olub və bu idman növü üzrə rayon birinciliyində ikinci yerə layiq görülüb.

Yeməkxanada keçirdiyimiz müşahidələr göstərdi ki, burada hər bir əməkdaş üzərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir. Hazırlanan hər yemək, görülən hər iş şəxsi heyətin sağlam qidalanmasına və gündəlik xidmət fəaliyyətinin etibarlı təminatına xidmət edir. Çünki güclü ordunun arxasında yalnız müasir silah və peşəkar hazırlıq deyil, eyni zamanda, öz işini sevən, görünməyən zəhməti ilə bu sistemə töhfə verən insanlar da dayanır.

**Emil MURADLI**
**“Azərbaycan Ordusu”**

*Nümunəvi xidmət*

# Peşəsinə sadiq gizir

Hərbi xidmət böyük məsuliyyət, Vətənə sonsuz sədaqət tələb edən şərəfli peşədir. Azərbaycan Ordusunda xidmət edən hər bir hərbi qulluqçu tutduğu vəzifədən asılı olmayaraq ordumuzun sürətli inkişafı və gücünün təmin olunmasına öz töhfəsini verir. Bu töhfə bəzən sərhəddə silahla, bəzən isə görünməyən, lakin son dərəcə vacib sahələrdə fədakar xidmətlə özünü göstərir. Həmin sahələrdən biri də hərbi tibb bölməsinin əczaçılıq xidmətidir. Şəxsi heyətin sağlamlığının qorunması, hərbi hissələrin dərman vasitələri ilə vaxtında təmin olunması, tibbi ehtiyatların düzgün saxlanılması və idarə edilməsi ordunun döyüş qabiliyyətinin mühüm tərkib hissələrindən biridir.



"N" hərbi hissəsində xidmət edən əczaçı gizir Alıyev Nurlan Əlövsət oğlu 22 noyabr 1992-ci ildə Ağstafa rayonunun Pirili kəndində anadan olub. Uşaqlıq illəri sadə kənd mühitində keçsə də, gələcəklə bağlı arzuları uşaqkən formalaşıb. Hələ məktəb illərindən hərbçi olmağı qarşısına məqsəd qoyan Nurlan Alıyev üçün Vətənə xidmət etmək ən ali amal hesab edilib.

"Uşaqlıqdan hərbi mundiri əynimdə daşımağı böyük maraqla arzulayırdım. Həmişə düşünürdüm ki, bir gün mən də bu şərəfli peşənin sahibi olacağam. Bu arzu illər keçdikcə daha da möhkəmləndi və nəticədə mən də Azərbaycan Ordusunun hərbçisi oldum", - deyə həmsöhbətimiz bildirir.

Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Tibb Universitetinin nəzdində fəaliyyət göstərən Hərbi Tibb fakültəsində təhsil alan Nurlan Alıyev burada əczaçılıq ixtisasına yiyələnib. Təhsil müddətində əldə etdiyi nəzəri bilikləri praktik bacarıqlarla möhkəmləndirən gənc mütəxəssis gələcək xidmətinə olduqca ciddi hazırlaşıb.

Uzun illər qazandığı təcrübə ona çətin və məsuliyyətli peşədə çevik qərar qəbul etməyə kömək edib. Xidmət yoldaşları onu intizamlı, təmkinli və işinə tələbkar hərbi qulluqçu kimi tanıdıqlarını bildirirlər. O isə bütün bunların əsasını işinə olan sevgidə görür: "İnsan məşğul olduğu işi sevməlidir. İşini sevən hər kəs isə daim öyrənməyə, özünü inkişaf etdirməyə səy göstərir. Mən də çalışıram ki, üzərimə düşən vəzifəni vicdanla yerinə yetirim və dövlətimin etimadını doğruldum", - deyə o, bildirir.

"Hər bir peşədə olduğu kimi hərbi xidmətdə də hər bir vəzifənin öz məsuliyyəti var. Əczaçının işi bəzən kiçik görünsə də, onun dəqiq və məsuliyyətli fəaliyyəti hər gün hiss olunur. Çünki hər bir dərman vasitəsi düzgün saxlanılmalı, vaxtında qeydiyyata alınmalı və ehtiyac yarananda gecikmədən çatdırılmalıdır", - deyə o, vurğulayır.

Xidmət etdiyi hərbi hissədə tibbi təchizatın təşkili mühüm istiqamətlərdən biridir. Burada saxlanılan dərman vasitələri yalnız həmin hissənin daxili tələbatı üçün deyil, zərurət yarandıqda digər hərbi hissələrin təminatı üçün də istifadə olunur. Bu isə iş prosesində daha yüksək diqqət, dəqiqlik və məsuliyyət tələb edir.

Nurlan Alıyev dərman vasitələrinin qəbulundan başlayaraq onların saxlanılması, uçotu və göndərilməsinə qədər hər bir mərhələnin nəzarətdə saxlanıldığını bildirir.

"Ən vacib məqsədimiz şəxsi heyətin tibbi təminatının fasiləsiz şəkildə təmin edilməsidir. Burada hər bir preparatın öz yeri və istifadə qaydası var. Bu işdə səhlənkarlığa yol vermək olmaz. Çünki məsuliyyətimiz insan sağlamlığıdır", - deyə gizir Alıyev qeyd edir.

Gizir Nurlan Alıyev hesab edir ki, gənc hərbi qulluqçular ilk növbədə intizama, məsuliyyətə və Vətən sevgisinə sadiq olmalıdırlar. Onun fikrincə, hərbi xidmətdə uğurun əsas şərti məhz bu keyfiyyətlərdir.

Bu gün Azərbaycan Ordusunda minlərlə hərbi qulluqçu müxtəlif sahələrdə eyni məsuliyyətlə xidmət edir. Gizir Alıyev Nurlanın peşəsinə bağlılığı, uzun illər ərzində qazandığı təcrübə və nümunəvi xidməti göstərir ki, ordumuzun gücü yalnız müasir silahlarla deyil, həm də öz peşəsini sevən, vəzifəsini vicdanla yerinə yetirən insanların əməyi ilə möhkəmlənir. Məhz belə hərbi qulluqçuların gündəlik zəhməti Azərbaycan Ordusunun dayaqlarını daha da gücləndirir və gənc nəsil üçün örnək olur.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

Müdafiənin uğuru yalnız şəxsi heyətin hazırlığından və silahların texniki imkanlarından asılı deyil. Döyüş meydanında mövqelərin düzgün hazırlanması, mühəndis maneələrinin yaradılması və qüvvələrin etibarlı şəkildə qorunması da həlledici əhəmiyyət daşıyır. Məhz bu məqsədlə həyata keçirilən mühəndis tədbirləri hərbi elmdə fortifikasiya anlayışı ilə ifadə olunur.

Fortifikasiya (latınca fortificatio - "möhkəmləndirmə") - hərbi elmdə düşmənin hücumunu ləngitmək, onun irəliləyişini çətinləşdirmək və öz qoşunlarının müdafiəsini gücləndirmək məqsədilə yaradılan müdafiə qurğularının və mühəndis tədbirlərinin məcmusudur. Fortifikasiyanın tarixi qədim dövrlərə gedib çıxır. İlk şəhər divarları, qalalar və müdafiə sədləri yaşayış məntəqələrini xarici hücumlardan qorumaq məqsədilə inşa olunurdu. Müharibə vasitələrinin inkişafı ilə fortifikasiya da təkmilləşmiş, torpaq istehkamlarından daş qalalara, daha sonra isə dəmir-beton bunkerlərə, yeraltı sığınacaqlara və müasir müdafiə komplekslərinə qədər uzun inkişaf yolu keçmişdir. Müasir hərbi nəzəriyyədə fortifikasiyalar əsasən iki qrupa bölünür: daimi və sahə fortifikasiyaları. Daimi fortifikasiyalara uzunmüddətli istifadə üçün tikilən qalalar, bunkerlər, müdafiə rayonları və digər möhkəm qurğular daxildir. Sahə fortifikasiyaları isə döyüş şəraitində qısa müddətdə yaradılan səngərlər, atəş mövqeləri, sığınacaqlar, rabitə xəndəkləri və müxtəlif mühəndis maneələrindən ibarətdir. Fortifikasiyanın əsas məqsədi şəxsi heyəti və döyüş texnikasını düşmənin atəş təsirindən qorumaq, müdafiənin dayanıqlığını artırmaq və bölmələrin döyüş qabiliyyətini saxlamaqdır. Düzgün qurulmuş fortifikasiya sistemi müdafiə olunan qüvvəyə daha az itki ilə uzun müddət müqavimət göstərməyə, eyni zamanda əlverişli şərait yarandıqda əks-hücuma keçmək üçün əlverişli imkan yaratmağa xidmət edir.

*Hərbi terminlər*

## Fortifikasiya




Müasir müharibələrdə yüksək dəqiqlikli silahların, pilotsuz uçuş aparatlarının və digər qabaqcıl döyüş vasitələrinin geniş tətbiqinə baxmayaraq, fortifikasiya öz strateji əhəmiyyətini qoruyub saxlayır. Bu gün fortifikasiya müdafiə əməliyyatlarının planlaşdırılmasında, mühəndis təminatının təşkilində və qoşunların döyüş dayanıqlığının artırılmasında mühüm rol oynayan əsas hərbi anlayışlardan biridir.

**Emil MURADLI**
**"Azərbaycan Ordusu"**

## Uğurlarınız bol olsun




25-26 iyul tarixlərində Bakıda keçirilən cüdo üzrə Avropa Kubokunda (European Judo Tour Baku Judo Hopes Tournament 2026) Ordu İdman Klubunun cüdoçuları yüksək nəticə göstərərək 4 medal qazanıblar.








Yarışın yekunlarına əsasən fərqlənən idmançılarımız aşağıdakılardır:

Əfsanə Salmanlı (63 kq) - qızıl medal
Kərim Məmmədov (73 kq) - qızıl medal
Mövlan İsgəndərli (66 kq) - bürünc medal
Həmid Şəfiyev (60 kq) - bürünc medal

İdmançılarımızı, məşqçiləri Rauf Vəliyevi və İbrahim Aslanovu təbrik edir, gələcək yarışlarda yeni uğurlar arzulayırıq.




---

Avqustun 1-də Abşeron OİK-də keçirilən cüdo üzrə U-17 Liqa yarışının 3-cü turunda Ordu İdman Klubunun idmançısı İdris Xanbalayev (+90 kq) gümüş medal qazanıb.

İdmançımızı, məşqçiləri Rauf Vəliyev və Nazim Abdullayevi təbrik edir, gələcək yarışlarda daha böyük nailiyyətlər arzulayırıq.

# Xəbərlər: hadisələr, faktlar

### Özləm Karapınar Türkiyə Hərbi Hava Qüvvələrinin tarixində ilk qadın general oldu



Polkovnik Özləm Karapınar Türkiyə Hərbi Hava Qüvvələrinin tarixində "general-mayor" ali hərbi rütbəsinə yüksələn ilk qadın olub.

Bununla bağlı qərar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sədrliyi ilə keçirilən Ali Hərbi Şuranın iclasında qəbul edilib. Ümumilikdə, Türkiyə Silahlı Qüvvələrinin 69 polkovnikinə general və admiral rütbələri verilib. Onların arasında Türkiyə tarixində ilk kosmonavt Alper Gezeravcı da var. Beləliklə, avqustun 30-dan etibarən Türkiyə Silahlı Qüvvələrinin sıralarında xidmət edən general və admiralların sayı 334-ə çatacaq.



### CNN Pentaqonun əsas sursat ehtiyatlarının azaldığını bildirib

Pentaqonun əsas sursat ehtiyatları təhlükəli dərəcədə aşağı səviyyəyə düşüb. ABŞ hərbi komandirləri arsenalın vəziyyətindən ciddi narahatdırlar.

Bu barədə CNN telekanalı mənbələrinə istinadla məlumat yayıb. Telekanalın məlumatına görə, hava hücumundan müdafiə vasitələri ehtiyatlarının tükənməsinin əsas səbəbi İranla müharibə olub. Mənbələrin bildirdiyinə görə, ABŞ müharibədən əvvəlki səviyyə ilə müqayisədə THAAD raketləri ehtiyatlarının təxminən 80 faizini, həmçinin "Patriot" raketləri ehtiyatlarının təxminən yarısını istifadə edib.

CNN qeyd edir ki, sursat çatışmazlığı məsələsi ABŞ Prezidenti Donald Trampın ötən həftə İrana qarşı yeni zərbələr endirməkdən imtina etmək qərarından əvvəl də gündəmə gəlib.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Ağayev Azər Qulam oğluna verilmiş MN № 0069334 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Tibb xidməti baş leytenantı Qasımlı Nurəli Çingiz oğluna verilmiş MN № 0066189 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Bağırov Elxan Mehman oğluna verilmiş MV № 116747 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Xanəliyev Əfran Azər oğluna verilmiş MV № 128971 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Həsənov İlqar Ocaqulu oğluna verilmiş MV № 028013 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi: (012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı xəzinədarlıq Kod: 200189 VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Bəxtiyar ƏLİYEV | Lisenziya № 361 Sifariş № 702 Nüsxə 3653 |